QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 017 (5489) 27 **yanvar** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Azərbaycan ilə Ekvador arasında siyasi əlaqələr yaxşı səviyyədədir”

*Prezident İlham Əliyev Ekvadorun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



Səh 2

“Azərbaycan ilə Çili arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi önəmlidir” 2

Əli Həsənov: “Mehman Əliyevin iddiaları kökündən yanlış mülahizələrdir” 3

Siyavuş Novruzov: “Bu il seçki ilidir, belə təxribatlar çox olacaq” 4

QHT Şurasının 2017-ci ildəki fəaliyyəti müzakirə olunub 6

Sarkisyan AŞPA-da özünü ifşa etdi 7

Vüqar Səfərli: “Gələn həftə yeni mənzillərin açarları jurnalistlərə təqdim olunacaq” 4








6 “Mənəvi dəyərlərin qorunması xalqımızın gələcəyi üçün vacibdir”



12 “Faciə günü də Əli Kərimlinin şou yaratmağa çalışması onun bütün kriteriyaları aşdığını göstərir”



16 Mourinyo “Mançester Yunayted”lə yeni müqavilə imzalayıb!



# “Azərbaycan ilə Çili arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi önəmlidir”

*Prezident İlham Əliyev Çilinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Çili Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xose Manuel Silvanın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, Xose Manuel Silva etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.***

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin önəmini vurğulayaraq bununla bağlı Azərbaycan ilə Çilinin bir-biri haqqında daha çox məlumata malik olmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, ölkələrimizin biznes icmaları arasında əməkdaşlıq, rəsmi səviyyədə qarşılıqlı səfərlər, beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın həyata keçirilməsi, eyni zamanda, mədəni tədbirlər, müxtəlif tədqimatlar və sərgilərin təşkil olunması, xalqlar arasında münasibətlər yaxın tərəfdaşlıq əlaqələrinin qurulmasına kömək edə bilər. Dövlətimizin başçısı vurğuladı ki, bütün bunlar, öz növbəsində, iqtisadi əlaqələrin qurulması işinə təkan verər. Bu işdə ticarət və investisiya imkanlarının müəyyənləndirilməsi də mühüm rol oynaya bilər.

Səfir Xose Manuel Silva ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Çili Respublikasının Prezidenti Sebastian Pinyeranın tapşırığı əsasında iki ölkə arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd etdi.

# “Azərbaycan ilə Ekvador arasında siyasi əlaqələr yaxşı səviyyədədir”

*Prezident İlham Əliyev Ekvadorun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Ekvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri German Alexandro Orteqa Almeydanın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, German Alexandro Orteqa Almeyda etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.***

Söhbət zamanı Azərbaycan ilə Ekvador arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu bildirildi, ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulandı. Qeyd edildi ki, iqtisadi əlaqələrin müxtəlif sahələrdə, xüsusən idxal-ixrac sahəsində inkişaf etdirilməsi üçün yaxşı imkanlar var.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 aprel tarixli 604 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Honduras Prezidenti Xuan Orlando Ernandes Alvaradoya təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Hörmətli cənab Prezident, Honduras Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Honduras arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi davam etdirəcəyik. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Honduras xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm”.

# Əli Həsənov: “Mehman Əliyevin iddiaları kökündən yanlış mülahizələrdir”



**Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun musavat.com-a müsahibəsini təqdim edirik:**

***- Əli müəllim, Azərbaycan Prezidentinin media siyasətinin həyata keçirilməsinə məsul olan köməkçisi kimi Mehman Əliyevin həbs olunması və sonradan da azadlığa buraxılmasında sizin hansısa iştirakınız olubmu?***

- Təəssüf edirəm ki, Mehman Əliyev heç bir fakta söykənmədən bir neçə müsahibə və açıqlamasında bu tipli əsassız iddialar irəli sürüb və sizin də qeyd etdiyiniz kimi, Azərbaycan dövlətinin informasiya siyasətinin həyata keçirilməsinə, həmçinin ölkədə qanunçuluğun qorunmasına məsul olan yüksək ranqlı dövlət məmurları haqqında mənfi rəy formalaşdırmaq istəyib. Mehman Əliyev iddia edib ki, onun həbsi Cənab Prezidentin köməkçisi kimi mənim və Baş prokuror Zakir Qaralovun təşəbbüsü ilə ali rəhbərlik səviyyəsində müzakirə olunaraq həyata keçirilib. O, hətta daha da irəli gedərək, həbs qərarının guya 2018-ci il prezident seçkiləri ilə bağlı olduğunu, Mehmanın hansısa ciddi islahat konsepsiyasının mövcudluğunu və Administrasiyaya təqdim edildiyini, həmin sənədin sonradan mənim əlimə keçdiyini və daha sonra bu həbsə qərar verildiyini iddia edib. Tam qətiyyətlə bildirirəm ki, bu iddia absurddur və qətiyyən həqiqətə uyğun deyil. Kökündən yanlış fikir və mülahizələrdir, dövlətin informasiya siyasətini və bu işə birbaşa məsul şəxs kimi mənin reputasiyamı qaralamaq məqsədi daşıyır.

***- Sizcə, bu iddiaların ortaya atılmasında məqsəd nədir?***

- Mehman Əliyev məqsədyönlü şəkildə səsləndirdiyi bu tipli açıqlamalara heç özünün də inanacağı qədər sadəlövh insan deyil. O, Azərbaycan dövlətinin media siyasətinin 90-cı illərdən başlayaraq necə formalaşdığını və həyata keçirildiyini, bu siyasətin keçən dövrdəki effektli nəticələrini, xarici dairələrin onun rəhbərlik etdiyi agentlik və digər qurumlar vasitəsilə ölkədaxili proseslərə müdaxilə cəhdlərini və buna nail ola bilmədiklərini çox yaxşı bilir. Qoy mənə dünyada ölkə göstərsin ki, orada dövlət öz mediasını idarə etməyə çalışmır və başlı-başına buraxır. Odur ki, Mehman Əliyev də nə dediyinin fərqindədir və bu fikirlərin səsləndirilməsi sadəcə olaraq onun aldığı növbəti tapşırıqdır...

“Hər ikimiz də siyasətə elə həmin dövrdən qoşulmuşuq və ikimiz də əliyevçi olmuşuq. Sadəcə o, Əbülfəz Əliyevi, mənsə Heydər Əliyevi təbliğ etmişəm” Mən Mehmanı gəncliyindən tanıyıram. 1980-ci illərin sonu 90-cı illərin əvvəlində M.V.Lomonosov adına Moskva Dövlət Universitetində onunla paralel təhsil almışıq. O, jurnalistika, mənsə tarix fakültəsində oxuyurduq. Hər ikimiz də siyasətə elə həmin dövrdən qoşulmuşuq və ikimiz də əliyevçi olmuşuq. Sadəcə o, Əbülfəz Əliyevi, mənsə Heydər Əliyevi təbliğ etmişəm. Mehman da, mən də öz mövqeyimizdə, dünyagörüşümüzdə həmişə sabit, prinsipial və sadiq olmuşuq. Biz mövqe fərqimizi qoruyub saxlamışıq və bu amil ümumi münasibətimizə heç zaman mənfi təsir göstərməyib. Düşünürəm ki, heç indi də göstərməməlidir. Mehman Azərbaycanın inkişafını və xalqımızın firavan gələcəyini öz mövqeyinə uyğun təsəvvür edir, mənsə başqa cür - bu firavanlığın və inkişafının məhz indiki iqtidarın təmin etdiyini və gələcəkdə də edəcəyinə əminəm. O ki, qaldı Mehmanın ciddi-cəhdlə keçmiş həbsini konkret vəzifəli şəxslərin, o cümlədən də mənim adımla bağlamağına və bu məsələni siyasiləşdirmək cəhdinə, bunu da yaxşı anlayıram. O, özünü və ətrafdakıları adi jurnalist deyil, daha yüksək statuslu bir şəxs olduğuna inandırmaq istəyir. Olsun, buna bizim etirazımız yoxdur. Amma bizim üçün, hökumətimiz üçün Mehman Əliyev də digər KİV təsisçilərindən və rəhbərlərindən fərqlənmir. O həm jurnalistdir, həm sahibkardır, həm də xarici fond və qurumlarla işləyir. Deməli, bəlli öhdəliyi olan məsul şəxsdir. Amma kim olursa-olsun, ölkənin qanunları qarşısında, o cümlədən vergi öhdəlikləri qarşısında heç bir əlavə üstünlüyə, immunitetə malik deyil.

***- Ümumiyyətlə, Mehman Əliyevin həbsi ilə bağlı siyasi dairələrdə hansısa müzakirə aparılması faktı olubmu?***

- Sizə artıq məlumdur ki, 2017-ci ilin avqustunda “Turan” İA-nın direktoru kimi onunla bağlı vəzifə səlahiyyətlərindən sui-istifadə, vergi öhdəliklərindən yayınma və qanunsuz sahibkarlıq maddələri ilə ittiham irəli sürülmüş və Yasamal Rayon Məhkəməsinin qərarı ilə barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilmişdi. Bununla bağlı birmənalı bəyan edirəm ki, onun həbsi məsələsi Cənab prezidentin yanında xüsusi müzakirə olunmayıb və həmin müzakirələrdə də hansısa məmurlar iştirak etsin. Mehman Əliyev müvafiq orqan tərəfindən konkret maddə ilə günahlandırılaraq məhkəmənin qərarı ilə saxlanılıb. Bundan sonra, o, özü barəsində seçilmiş məhkəmə qərarının dəyişdirilməsi ilə bağlı Azərbaycan Prezidentinə müraciət ünvanlamışdı, dövlət başçısı da həmin müraciətə dərhal münasibət bildirərək aidiyyəti orqanlara həbs qətimkan tədbirinin dəyişdirilməsi imkanına baxılmasını tövsiyə etmişdi. Təbii ki, cənab Prezidentin tövsiyəsi humanizm prinsiplərinə əsaslanıb və dövlət başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamında əks olunmuş ideya və prinsiplərə tam uyğun olub.Buna görə də bu gün aidiyyəti dövlət strukturlarının qanuni fəaliyyəti, məhkəmə orqanının obyektiv qərarı ilə dövlət başçısının müvafiq tövsiyəsi arasında ziddiyyət axtarmaq, həm də bundan çıxış edərək yüksək ranqlı məmurlar haqqında əsassız iddialar irəli sürmək və məlum hadisəni siyasiləşdirmək cəhdi yolverilməzdir. “Mehman Əliyevin hazırkı xüsusi fəallığı və həbsi ilə bağlı ictimai rəydə yanlış fikir formalaşdırmaq cəhdinin özü də bizdə məqsədyönlü fəaliyyət təəssüratı yaradır”

M.Əliyevin hazırkı xüsusi fəallığı və həbsi ilə bağlı ictimai rəydə yanlış fikir formaılaşdırmaq cəhdinin özü də bizdə məqsədyönlü fəaliyyət təəssüratı yaradır. Əvvəla, o, Azərbaycanda siyasi motivlərlə həbslərin həyata keçirildiyini nümayiş etdirmək, bununla da həm yerli, həm də beynəlxalq ictimaiyyətin gözündə hakimiyyətin mövcud siyasətini ləkələmək istəyir. Digər tərəfdən isə, bu tipli müsahibələrin, açıqlamaların məqsədli şəkildə fəaliyyət göstərən reket saytlarda tirajlanması məsələnin kökündə bəlli dairələrin maraqlarının dayandığı barədə düşünməyə əsas yaradır. Görünür, bu qüvvələr öz cılız ambisiyalarını reallaşdırmağa çalışarkən onun yekun nəticəsi barədə düşünmürlər. Təbii ki, bu da yalnız təəssüf doğura bilər.

Hesab edirəm ki, hər bir şəxs, o cümlədən də Mehman Əliyev məsuliyyətli davranmağı bacarmalı, reallıq hissini itirərək yanlış informasiyalar və istiqamətləndirmələrin təsiri altına düşməməlidir.




# “The National Interest”: “Amerikaya Azərbaycan kimi strateji tərəfdaşlar lazımdır”

***Amerikada çıxan “The National Interest” nəşrində “İrs” fondu yanında Duqlas və Sara Ellisonlar adına Xarici Siyasət Araşdırmaları Mərkəzinin direktoru Lyuk Koffinin “Amerikaya Azərbaycan kimi strateji tərəfdaşlar lazımdır” sərlövhəli məqaləsi dərc edilib. Müəllif yazır ki, Cənubi Qafqazda yerləşən kiçik, lakin mühüm bir ölkə olan Azərbaycan ABŞ siyasətçilərinin daha artıq diqqətinə layiqdir və Vaşinqton bu ölkəyə diqqəti artırmalıdır.***

Koffi qeyd edir ki, ABŞ ilə Azərbaycan arasında münasibətlər hələ Birinci Dünya müharibəsindən sonra, Azərbaycan Xalq Cümhuriyyəti dövründə keçirilmiş Paris Sülh Konfransı zamanı yaranıb. Həmin konfransında Azərbaycan nümayəndə heyəti ilə görüşmüş Prezident Vudro Vilson bir neçə ildən sonra San-Fransiskoda bir çıxışında o görüşü xatırlayaraq deyib: “Bir dəfə Azərbaycandan bizə çox maraqlı və ləyaqətli bir qrup centlmen gəlmişdi. Onların azadlıq ideyaları, hüquqlar və ədalət barədə danışdıqlarını mən dərhal anladım, onlarla biz eyni dildə danışırdıq”.

Ekspert təhlükəsizlik sahəsində ikitərəfli əməkdaşlığın inkişafında Azərbaycanın rolundan söhbət açaraq yazır ki, Azərbaycan terrorizmə qarşı mübarizə işinə sanballı töhfə verib. Əfqanıstanda xidmət edən azərbaycanlı hərbi qulluqçular heyətinin sayı bu yaxınlarda artırılaraq 120 nəfərə çatıb. Bu, ilk baxışdan o qədər də böyük rəqəm deyil, lakin qeyd etmək lazımdır ki, bu rəqəm 26 başqa ölkənin, o cümlədən NATO üzvləri olan İspaniya, Niderland və Norveç kimi ölkələrin Əfqanıstandakı qoşunlarının sayından çoxdur.

Azərbaycan diplomatiya sahəsində də pozitiv töhfə verib. Yaxın gələcəkdə Azərbaycanda amerikalı və rusiyalı hərbi sərkərdələr arasında yüksək səviyyəli üçüncü görüş keçiriləcək. NATO Birləşmiş Silahlı Qüvvələrinin Ali Baş Komandanı və eyni zamanda, ABŞ-ın Avropadakı Ali Hərbi Komandanı olan general Kertis Skaparrotti Bakıda Rusiya Silahlı Qüvvələrinin Qərargah rəisi Valeri Gerasimovla görüşəcək. Koffi vurğulayır ki, ABŞ-Rusiya münasibətlərində yaranmış soyuqluğu nəzərə alsaq, bu cür görüşlər çox faydalı və əhəmiyyətlidir.

Ekspert daha sonra Azərbaycanda mövcud tolerantlıq və multikulturalizm ənənələrindən söhbət açır. O qeyd edir ki, bu ölkənin əhalisinin əksəriyyəti müsəlman olsa da, Azərbaycan dünyəvi dövlətdir. Azərbaycanın İsrail ilə çox sıx münasibətləri var. Azərbaycanda yerləşən Qırmızı Qəsəbə dünyada İsrailin hüdudlarından kənarda yerləşən yeganə yaşayış məntəqəsidir ki, onun əhalisinin əksəriyyəti yəhudilərdir. Qeyd etmək lazımdır ki, İsrailin idxal etdiyi neftin 40 faizi Azərbaycandan alınır. Bundan əlavə, ekspert yazır ki, Xəzərdə ən böyük liman olan Bakı Avropa ilə Mərkəzi Asiya arasında daşınan yüklər üçün nəqliyyat qovşağıdır.

İlk neft quyusu 1846-cı ildə Bakının yaxınlığında qazılıb. Bu səbəbdən Bakı şəhəri regionun neft-qaz sahəsi üçün xüsusi əhəmiyyət kəsb edirdi. Amerikanın energetika şirkətləri 1990-cı illərdən başlayaraq Azərbaycanda neft və qazın kəşfiyyatı və hasilatı ilə məşğul olur. İqtisadi baxımdan, xüsusən enerji sektorunda Azərbaycan regionda mühüm aktor kimi qalacaq. ABŞ və Rusiya hərbi komandanlarının yaxın vaxtlarda keçirilmiş görüşləri göstərdi ki, Azərbaycan həm də Qərb ilə Şərq arasında qərəzsiz vasitəçi kimi mühüm rol oynayır. Amerikaya Azərbaycan kimi tərəfdaşlar lazımdır.

Koffi “The National Interest” nəşrində dərc edilmiş məqaləsinin sonunda yazır ki, əgər Amerikanın siyasi kursunda düzgün tədbirlər görülərsə, onda ABŞ ilə Azərbaycan arasında münasibətlərin bundan sonrakı inkişafı hər iki ölkə üçün qarşılıqlı sərfəli olacaq.

# Prezident Administrasiyasının şöbə müdiri səfirlə görüşüb



Yanvarın 26-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, professor Etibar Nəcəfov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan multikulturalizm siyasətinin əsas istiqamətləri haqqında ətraflı məlumat verilib, ölkəmizin bu sahədə əldə etdiyi böyük nailiyyətlər qeyd olunub. Etibar Nəcəfov Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin iki ölkə arasında həyata keçirilən layihələr barədə ətraflı söhbət açaraq bildirib ki, 2015-ci ilin yaz semestrindən başlayaraq bu günədək Türkiyənin Kayseri şəhərində yerləşən Erciyes Universitetində "Azərbaycan multikulturalizmi" fənni uğurla tədris olunur. Ötən illər ərzində xarici ölkə universitetlərində və eyni zamanda Azərbaycanın təhsil ocaqlarında "Azərbaycan multikulturalizmi" fənnini öyrənən tələbələr üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ideya və təşəbbüsü ilə təşkil olunan beynəlxalq multikulturalizm yay və qış məktəblərində Türkiyənin bir sıra universitetlərindən də tələbələrin iştirak etdiyi, qardaş ölkənin Türk Dil Kurumu, Yunus Emre İnstitutu, Egey Universiteti Türk Dünyası Araşdırmaları İnstitutu ilə əməkdaşlığı çərçivəsində həyata keçirilən tədbirlər və digər layihələr barədə də geniş söhbət aparılıb.

Görüşdə Türkiyə Respublikası səfirliyinin əməkdaşı Merve Rüya Avcı və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov iştirak edib.

# Siyavuş Novruzov: "Bu il seçki ilidir, belə təxribatlar çox olacaq"



"Bəzi beynəlxalq təşkilatlar mətbuat azadlığına görə Əfqanıstanı belə Azərbaycandan qabaqda göstərir. Bu, çox primitiv bir yanaşmadır". APA-nın məlumatına görə, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini Siyavuş Novruzov deyib.S. Novruzov bildirib ki, bəzi dövlətlərin təbii sərvətlərini talamaq üçün hansısa müxalif qüvvələr formalaşdırılır, ölkələri fəlakətlə üz-üzə qoyulur: "Bu gün Yaxın Şərq ölkələrində baş verənlər bunun nəticəsidir. Yaxud ABŞ Dövlət Departamenti Azərbaycanı qeyri-stabil ölkələr sırasında göstərir. Azərbaycana turistlərin gəlməsinə mane olmaq istəyirlər. Azərbaycan necə qeyri-stabil ölkədir ki, ABŞ və Rusiya Baş qərargahlarının rəisləri məhz Bakıda görüşür?

# Vüqar Səfərli: "Gələn həftə yeni mənzillərin açarları jurnalistlərə təqdim olunacaq"



Ötən il iyulun 20-də jurnalistlər üçün tikilən növbəti binanın açılışını etdik. Lakin bu günədək bina istismara verilmədiyinə görə jurnalistlər ora köçə bilməyiblər. Artıq bütün sənədlər yekunlaşıb və bina istismara hazırdır. Bunu jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli deyib.

V.Səfərli bildirib ki, növbəti həftə mənzillərin açarları sahiblərinə təqdim ediləcək.

# "Azərbaycanın reytinqdə irəliləməsi inkişafımızın göstəricisidir"



"Davos İqtisadi Forumda müzakirə olunan məsələlər hər zaman dünyanın diqqət mərkəzində olub. Artıq Forumda təkcə iqtisadi məsələlərin deyil, həm də siyasi məsələlərin müzakirəsinə, dünyanı narahat edən bir çox məsələlər barədə fikir mübadiləsi etməyə imkan yaranıb". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib. Deputat bildirib ki, 1970-ci illərdə yaranan Davos İqtisadi Forumu hazırda 2000-dən çox iştirakçının təmsil olunduğu nəhəng təşkilata çevrilib. Azərbaycan 1995-ci ildən müntəzəm olaraq Forumda iştirak etdiyini deyən R. Əliyev söyləyib ki, artıq illərdir ki, forumun işində dünyanın aparıcı ölkələrinin dövlət və hökümət rəhbərləri aparıcı şirkətlərin və beynəlxalq təşkilatın rəhbərləri iştirak edir. Azərbaycan Prezidentinin forumda çıxışının mühüm əhəmiyyət kəsb etdiyini diqqətə gətirən deputat qeyd edib ki, ölkə başçısının Forumun proqramına əsasən "Strateji baxış-Avrasiya" paneli çərçivəsində çıxışı ölkə həqiqətlərinin dünyaya çatdırılması istiqamətində növbə mühüm addım idi: "Prezident İlham Əliyev qonşu ölkələrə münasibətlər barədə danışarkən qeyd etdi ki, ərazilərimizin 20% -ni işğal etmiş Ermənistan istisna olmaqla Azərbaycan bütün qonşuları ilə çox yüksək münasibətlərə malikdir. Azərbaycan gənc müstəqil ölkədir. Ancaq Azərbayacan sözün əsil mənasında, müstəqil ölkə olmağa müvəffəq olub və bu ona həqiqi müstəqil siyasət aparmağa imkan verib. Bu siyasət nəticəsində Azərbaycan müstəqillik illərində bütün sahələrdə sürətli inkişafa nail olubvə böyük uğurlar qazanıb".

Deputat qeyd edib ki, dünya İqtisadi Forumun reytinq cədvəlində Azərbaycan öz yerini möhkəmləndirir və ildən-ilə irəliləyir: "Bildiyiniz kimi Artıq ötən ilə nisbətən Azərbaycan rəqabətlilik indeksinə görə dünyada 35 yerdədir. İqtisadiyatın inklüzivliyinə görə Azərbaycan 3-cü pillədə qərarlaşıb və buda ölkəmizin qısa zaman ərzində inkişaf edən dövlətlər sırasına keçməsinə sübutdur. Qeyd etmək istəyirəm ki, Azərbaycan ölkə başçısının rəhbərliyi ilə qarşıdakı illərdə daha da sürətlə inkişaf edəcək və beynəlxalq aləmdə tutduğu mövqeyini daha da möhkəmləndirəcək".

## AŞPA-da azərbaycanlı deputatın məruzəsi qəbul edilib

AŞPA-nın qış sessiyası çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvü, Assambleyanın hüquq məsələləri və insan hüquqları komitəsinin sədr müavini Vüsal Hüseynovun "İşgəncə və ölüm cəzası üçün istifadə olunan malların ticarətinə qarşı beynəlxalq qaydaların gücləndirilməsi" adlı məruzəsi yekdilliklə qəbul edilib. AZƏRTAC xəbər verir ki, məruzədə Avropa Şurasının üzv ölkələrinə, Nazirlər Komitəsinə və Avropa İttifaqına müvafiq tövsiyələr yer alıb. İşgəncə və ölüm cəzası üçün istifadə olunan malların ticarətinə nəzarəti gücləndirməyin tənzimlənməsinin zəruriliyi və qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

## Zakir Qaralov jurnalistin ölümü ilə bağlı Rusiyanın baş prokuroruna müraciət edib

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Azərbaycan vətəndaşı, jurnalist Ülviyyə Şamilqızının Həştərxan şəhərində yol-nəqliyyat hadisəsi nəticəsində vəfat etməsi ilə bağlı Rusiya Federasiyasının baş prokuroru Yuriy Çaykaya müraciət edib. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, müraciətdə Ü.Şamilqızının 23 yanvar 2018-ci il tarixdə Rusiya Federasiyasının Həştərxan şəhərində yolu keçərkən avtomobil tərəfindən vurulması nəticəsində vəfat etməsinin ictimaiyyət arasında geniş rezonans doğurması bildirilib.



Eyni zamanda həmin faktla bağlı Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin Həştərxan vilayəti üzrə İstintaq İdarəsi tərəfindən cinayət-prosessual qanunvericiliyin və beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq tam, hərtərəfli və obyektiv araşdırma aparılmasına və təqsirkar şəxsin hərəkətlərinə hüquqi qiymət veriləcəyinə əminlik ifadə olunub.

## Fövqəladə hallar naziri Bayıl yamacındakı sürüşmə ərazisinə baxış keçirib





Yanvarın 26-da fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Bayıl yamacında, Bakı Televiziya Qülləsinin yaxınlığındakı sürüşmə ilə bağlı əraziyə baxış keçirib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazir sürüşmə ərazisindəki vəziyyətlə tanış olub, operativ şəkildə lazımi işlərin görülməsi ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# KİVDF-nin MHA ilə birgə keçirdiyi müsabiqənin qalibləri mükafatlandırılıb

***Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin birgə keçirdikləri "İnformasiya cəmiyyətində müəlliflik və digər əqli mülkiyyət hüquqlarının mədəni, iqtisadi və hüquqi əhəmiyyəti" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.***







Tədbirdə Müəllif Hüquqları Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov, Fondun icraçı direktoru Vüqar Səfərli, Milli Məclisin deputatları, müxtəlif nazirlik və komitələrin məsul vəzifəli əməkdaşları, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və mükafatlandırılan jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Müəllif Hüquqları Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov qonaqları salamlayaraq informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı dövründə müəlliflik və digər əqli mülkiyyət hüquqlarının qorunmasının xüsusi aktuallıq kəsb etdiyini vurğulayıb. Agentliyin İdarə Heyətinin sədri bildirib ki, "biliklər cəmiyyəti" mərhələsi texnologiyaların sıçrayışı və əhəmiyyətli texnoloji dəyişikliklərlə müşayiət olunur. K.İmanov qeyd edib ki, rəqəmli eranın nəticələri bütün sahələrdə yeni reallıq formalaşdıraraq yeni davranış qaydası və tələblər irəli sürüb: "Üstəlik, rəqəmli məkanda informasiya axını həndəsi proqressiya sürəti ilə artır, belə ki, hər gün 2,5 kvintilyon həcmində verilənlər artmaqdadır. Bu isə o deməkdir ki, dünya miqyasında verilənlərin 90 faizi yalnız son 2 ildə yaradılmışdır. Bütün bunlar istər jurnalistikaya, istərsə də əqli mülkiyyət sahəsinə, müəllif hüququna böyük təsir göstərir".

Kamran İmanov, həmçinin vurğulayıb ki, Azərbaycanın son illər iqtisadi sahədə böyük uğurlara imza atması, eləcə də qlobal reytinq göstəricilərinin yüksəlməsi əqli mülkiyyət və müəllif hüquqlarının qorunması sahəsinə də müsbət təsirini göstərir. Agentliyin İdarə Heyətinin sədri bunun nəticəsi olaraq respublikamızın Rəqabətqabiliyyətlilik İndeksinin "Əqli mülkiyyətin qorunması" alt göstərici üzrə 4,8 bal toplamasını və dünyada 37-ci yerdə qərarlaşmasını mühüm uğur kimi qiymətləndirib: "Bununla da Azərbaycan 2016-2017-ci illərlə müqayisədə "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə tutduğu 71-ci yerdən 34 pillə yüksələrək, MDB ölkələri sırasında lider mövqeyində möhkəmlənib. Cənab Prezident İlham Əliyevin ölkədə apardığı institusional islahatlar nəticəsində Müəllif Hüquqları Agentliyi yeni statusla bugünkü konfransda iştirak edir. Agentlik dövlət başçısı tərəfindən təsis edilən, dövlət və ictimai əhəmiyyət kəsb edən, işçiləri dövlət qulluqçularına bərabər tutulan və mərkəzi icra hakimiyyəti orqanı statusunda təminatları olan, əqli mülkiyyət hüquqları sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimlənməni və nəzarəti həyata keçirən və fəaliyyəti ələqələndirən publik hüquqi şəxsdir".

K.İmanov son illər ölkə rəhbərliyinin yüksək diqqət və qayğısı ilə Agentliyin maddi-texniki və qanunverici-institusional bazasının möhkəmləndirilməsi sahəsində əldə olunmuş uğurlardan, eləcə də qarşıda duran vəzifələrdən söz açaraq bu nailiyyətlərin ölkə ictimaiyyətinə çatdırılmasında kütləvi informasiya vasitələrinin mühüm rolunu diqqətə çəkib. Fondla birgə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin bu baxımdan xüsusi əhəmiyyətə malik olduğunu deyən K.İmanov müsabiqənin yekun nəticələri barədə danışmaq üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib.

Tədbir iştirakçılarını salamlayan icraçı direktor Vüqar Səfərli Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 2009-cu ildə ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə yaradıldığını xatırladıb. İcraçı direktor Fondun ötən 9 ildə ölkədə fikir, söz və məlumat azadlıqlarının inkişaf etdirilməsinə, çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsinə, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, eləcə də sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən çoxsaylı layihələrin həyata keçirdiyini bildirib.

Azərbaycanda fikir, söz və mətbuat azadlıqlarının tam bərqərar olduğunu deyən Vüqar Səfərli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Davos İqtisadi Forumunda bəzi qərəzli dairələrə tutarlı cavab verdiyini bildirib: "Möhtərəm Prezidentimiz Davos İqtisadi Forumundakı dərin məzmunlu çıxışında haqlı olaraq bildirdi ki, Azərbaycanda fikir, söz və məlumat azadlıqları yüksək səviyyədə qorunur, əhalinin 80 faizi internetdən istifadə edir. İnternet azadlığının tam mövcud olduğu bir dövlətdə mətbuat azadlığının məhdudlaşdırıldığını iddia etmək tamamilə qərəzli və əsassızdır".

Çıxışını davam etdirən Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən tədbirlərin, eləcə də birgə fərdi yazı müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. İcraçı direktor həmçinin bildirib ki, Müəllif Hüquqları Agentliyi ilə birgə keçirilmiş müsabiqə əqli mülkiyyət sahəsinin səmərəli fəaliyyətinin, dayanıqlı inkişafının və şəffaflığının təmin edilməsi, xalqımıza məxsus mədəni irsin qorunması, erməni plagiatçılığına qarşı mübarizənin gücləndirilməsi, o cümlədən ictimaiyyətin bu sahədə maarifləndirilməsi və jurnalistlərin yaradıcı əməyinin stimullaşdırılması baxımından əhəmiyyətlidir. Vüqar Səfərli müsabiqəyə 22 kütləvi informasiya vasitəsindən 35 yazının təqdim edildiyini, yazıların Fondun 3, Müəllif Hüquqları Agentliyinin 1 nəfər eksperti tərəfindən qiymətləndirildiyini bildirib. İcraçı direktor ekspertlərin yekun qərarına əsasən, 6 nəfər jurnalistin əsas, 10 nəfər jurnalistin həvəsləndirici mükafata layiq görüldüyünü bildirib. İcraçı direktor, həmçinin Agentliyin rəhbərliyi ilə əldə olunmuş razılığa əsasən müsabiqədə iştirak edən, lakin yer tuta bilməyən media nümayəndələri üçün 100 manat məbləğində pul mükafatının nəzərdə tutulduğunu bildirib.

Tədbirdə çıxış edən Milli Məclisin Komitə sədri Siyavuş Novruzov müasir dövrdə əqli mülkiyyət və müəllif hüquqlarının qorunmasının Azərbaycanın milli təhlükəsizlik maraqlarının qorunması, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətini vurğulayıb. O, Agentliyin son illər bu sahədə intensiv fəaliyyət göstərərək ermənilərin xalqımızın maddi və mənəvi mədəniyyət nümunələrini, musiqisini özününküləşdirmək cəhdlərini dünya miqyasında ifşa etdiyini bildirib. S.Novruzov Azərbaycanda söz və mətbuat azadlıqlarının yüksək səviyyədə təmin olunduğunu bildirərək jurnalistləri dövlətçilik maraqlarını əsas tutaraq ölkəmizə qarşı qərəzli mövqe tutan yerli və xarici qüvvələrlə mübarizədə fəal olmağa çağırıb.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov keçirilən birgə müsabiqənin jurnalistlərin əqli mülkiyyət hüquqlarının qorunması, onların bu sahədə maarifləndirilməsi baxımından vacibliyini diqqətə çəkib. Müsabiqədə qalib olmuş jurnalistləri təbrik edən Ə.Amaşov bildirib ki, keçirilən tədbir Agentliklə media təmsilçiləri arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi baxımından da əhəmiyyətlidir.

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim edilib. Tədbiri yekunlaşdıran Müəllif Hüquqları Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov birgə müsabiqənin təşkilinə və media ilə əməkdaşlığın genişləndirilməsindəki xidmətlərinə görə Fondun rəhbərliyinə təşəkkürünü bildirib, belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

# QHT Şurasının 2017-ci ildəki fəaliyyəti müzakirə olunub



Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2017-ci ildəki fəaliyyəti ilə bağlı hesabat konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə çıxış edən Şuranın sədri, Milli Məclisin deputatı Azay Quliyev qurumun ötən ildəki fəaliyyətinin yekunlarını şərh edərək il ərzində QHT sektorunun inkişafı istiqamətində görülmüş işlərdən danışıb, həyata keçirilən tədbirlərin ictimai əhəmiyyətini və aktuallığını vurğulayıb. Bildirib ki, 2018-ci ildən etibarən QHT-lərin apellyasiya müraciətləri elektron qaydada qəbul ediləcək. Bununla bağlı artıq e-qht.az saytında apellyasiya bölməsi yaradılıb. 2018-ci ildə həmçinin "e-növbə" proqram təminatının istifadəyə verilməsi planlaşdırılır. Bu proqram vasitəsilə QHT-lər qrant müqaviləsinin bağlanması ilə bağlı bütün prosesləri elektron qaydada həyata keçirəcəklər. Müqavilə bağlanması üçün Şuraya gəlmək vaxtını özləri təyin edə biləcəklər. A.Quliyev qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin "Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" 2014-cü il 11 sentyabr tarixli Fərmanına əsasən Şura Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Dövlət Xidmətlərinin Elektron Reyestrində ilk və yeganə qurum olaraq digər büdcə təşkilatları bölməsində qeydiyyata alınıb. Şura dörd dövlət proqramın icrasında yaxından iştirak edib. Azay Quliyev diqqətə çatdırıb ki, keçən il Şuranın dəstəyi ilə 494 layihə həyata keçirilib. Şuranın layihələr üçün ayırdığı vəsaitin ümumi büdcəsi isə 3 114 900 milyon manat olub.

Şuranın katibliyinin icraçı direktoru Fərasət Qurbanov təmsil etdiyi qurumun ötənilki fəaliyyəti barədə geniş təqdimatla çıxış edib. Bildirib ki, "Vətəndaş cəmiyyəti" jurnalının 12 sayı işıq üzü görüb, jurnalda 600-dən çox QHT-nin fəaliyyəti işıqlandırılıb. Şuranın www.qhtxeber.az saytında il ərzində 48 min xəbər yerləşdirilib və sayta ümumi baxış sayı 340 min İP təşkil edib. 2017-ci il ərzində Şurada 21 beynəlxalq təşkilatın və xarici ölkə səfirliklərinin nümayəndələri ilə görüşlər keçirilib. Maliyyələşən layihələrin icrasına 1739 nəfər cəlb olunub. Onlardan 615 nəfər daimi, 1124 nəfər isə müvəqqəti işçilərdir. Layihələr çərçivəsində keçirilən tədbirlərdə 80 223 nəfər iştirak edib. Onlardan 33 269-u qadın, 46 954 nəfəri isə kişi olub. Şura tərəfindən 280 təlim keçirilib. Bu təlimlərdə 7687 nəfər iştirak edib. Keçən il ərzində 1259 müxtəlif tədbir keçirilib. 31 adda kitab, 27 kitabça, 161 buklet, 130 poster, təqvim hazırlanıb.

Fərasət Qurbanov bildirib ki, 2017-ci il ərzində 35 televiziya verilişi, 26 sosial çarx, 20 film, 16 sayt və 6 digər növ tədbirlər təşkil olunub. F.Qurbanov Şuranın 2017-ci ildə maliyyələşdirdiyi layihələrdən bəhs edən yeni tərtib olunmuş kitab haqqında da məlumat verib. Sonra QHT rəhbərləri Rauf Zeyni, Niyaməddin Orduxanlı, əməkdar jurnalist Azər Həsrət və digər şəxslər Şuranın 2017-ci ildəki fəaliyyətinin məhsuldar olduğunu və qənaətbəxş saydıqlarını deyiblər. Sonra Şuranın il ərzində QHT sektorunun inkişafı istiqamətində yerinə yetirdiyi işlər, maliyyələşdirilmiş layihələr, əldə edilmiş nəticələr barədə müzakirələr aparılıb. Konfransda iştirakçılara 2017-ci ildə maliyyələşdirilən layihələrlə bağlı kitab təqdim olunub.

# Mehman İsmayılov: "Mənəvi dəyərlərin qorunması xalqımızın gələcəyi üçün vacibdir"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılovun SİA-ya müsahibəsi:***



**- Mehman müəllim, əvvəlcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması zərurəti barədə məlumat verməyinizi xahiş edirik.**

- Mənəvi Dəyərlərin Təbliği Fondu cənab Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə yaradılmışdır. Həmin fərmanla Fondun Nizamnaməsi də təsdiq olunub. Bildiyiniz kimi mədəniyyətin iki yönü var - maddi və mənəvi. Təbii ki, bunlar bir-birini tamamlayırlar. Azərbaycan xalqının mədəniyyəti tariximizin müxtəlif mərhələlərindən keçib. Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur və həmin o dəyərlərin qorunması məsələsi çox vacibdir. Azərbaycan dövlətinin, Prezidentinin də bu sahəyə ayırdığı diqqət onu göstərir ki, mənəvi dəyərlərin inkişafı, qorunması bizim cəmiyyət, xalqımızın gələcəyi üçün nə qədər vacibdir.

Ümumiyyətlə, mənəvi dəyərlər dedikdə nə nəzərdə tutulur? Dəyər xalqın və cəmiyyətin əksəriyyətinin qəbul etdiyi, hörmət etdiyi, qoruduğu və nəsildən-nəsilə ötürdüyü bir amildir. Bir dəyərin dəyərə çevrilməsi üçün ən az üç nəslin dəyişməsi lazımdır. Əlbəttə ki, bizim də dəyərlərimiz müəyyən dövrlərdə nəsildən-nəslə ötürülüb və bizə gəlib çatan dəyərdir. Bəzən mənəvi dəyər dedikdə, sadəcə, dini dəyərlər və yaxud da əxlaqi dəyərlər başa düşülür. Amma əslində mənəvi dəyərlərin əhatə dairəsi çox genişdir. Yəni dil, din, mədəniyyət, bayraq, marş, adət-ənənə hamısı mənəvi dəyər hesab olunur. İctimai, əxlaqi, dini dəyərlər, adət-ənənələr, hətta deyərdim ki, beynəlmiləl dəyərlər hamısı birləşərək bir xalqın mənəvi dəyərlər sistemini meydana gətirir. Ona görə də mənəvi dəyərlər həm də bir xalqın mədəniyyətinin təməlidir. Məhz Azərbaycan dövlətinin də Mənəvi Dəyərlərin Təbliği Fondunu yaratmaqda məqsədi bizim mədəniyyətimizin təməl daşını daha da sağlamlaşdırmaqdır. Biz bu gün çalışacayıq ki, dövlətin bu siyasətini həyata keçirək və bu sahədə inkişafına əlimizdən gələni əsirgəməyək.

**- Fondun fəaliyyətinə ümumi nəzarəti hansı orqan həyata keçirir?**

- Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi təsdiq olunub. Nizamnamədə göstərilir ki, Fondun fəaliyyətinə ümumi nəzarəti beş nəfərdən ibarət Himayəçilər Şurası həyata keçirəcək. Bu üzvlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri tərəfindən beş il müddətinə ora təyin olunur. Beş ildən sonra isə təkrar bu müddət uzadıla bilər. Himayəçilər Şurasının Mənəvi Dəyərlərin Təbliği Fonduna əsas nəzarəti nədən ibarətdir. Hər şeydən öncə Himayəçilər Şurası Fondun fəaliyyət istiqamətlərini təyin edir. Hətta Fondun fəaliyyəti ilə bağlı müxtəlif təkliflərlə çıxış edə bilir. Ümumilikdə isə Fondun hesabatlarına rəy verir və ildə ən az iki dəfə toplanır.

**- Mehman müəllim, Mənəvi Dəyərlərin Təbliği Fondu tam gücü ilə nə vaxtdan fəaliyyətə başlayacaq və strukturu necə formalaşacaq?**

- Fondun fəaliyyəti üçün artıq hazırlıq işləri tamamlanmaq üzrədir. Düşünürəm ki, 2018-ci ilin fevral ayının sonlarından etibarən Fond tam gücü ilə fəaliyyətə başlayacaq. Fondun işçilərinin sayı 15 nəfərdən ibarətdir. Bura icraçı direktor, icraçı direktorun müavini və digər işçilər daxildir. Bildiyiniz kimi Fond Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərəcək. Fondun icraçı direktorunu və direktor müavinlərini DQİDK-nın sədri təyin edir. Digər işçilər isə icraçı direktor tərəfindən təyin olunur.

**- Fond fəaliyyətə başladığı dövrdə onun fəaliyyət sferası hansı sahələri əhatə edəcək?**

- Qeyd edim ki, Fondun Nizamnaməsi çox genişdir. Lakin bilmək lazımdır ki, yeni qurulan Fondun Nizamnaməsini ilk dövrdən əhatəli şəkildə qurmaq bir qədər çətindir. Amma gələcəkdə Nizamnaməni tam əhatə edəcək şəkildə Fondun fəaliyyəti planlaşdırılır. Biz çalışacayıq ki, bu Nizamnaməyə uyğun olaraq tamamilə geniş şəkildə fəaliyyət göstərək. Hər şeydən əvvəl Nizamnamədə göstərildiyi kimi Fond milli-mənəvi dəyərlərin qorunmasına və inkişafına, dini qurumların və vətəndaşların dini etiqad azadlığının təmin olunmasına dövlət dəstəyi verən bir qurumdur. Fond bu sahələri əhatə edəcək. Bu sahələrlə bağlı gələcəkdə müəyyən seminarların, konfransların, sosial layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bundan başqa aztəminatlı ailələrin dəfn xərcləri, müəyyən qism olmaqla onların təhsil haqlarının ödənilməsi, məscidlərin təmiri və bərpasına yardımçı olacaq. Həmçinin gələcəkdə Dini Etiqad Azadlığı Qanununa uyğun olaraq dini ədəbiyyatın, video və audio materialların hazırlanmasına dəstək verilməsi kimi amillər də nəzərdə tutulur.

# "PR və media dialoqu" mövzusunda tədbir keçirilib



Bakıda "PR və media dialoqu" mövzusunda tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbir Mətbuat Şurası və Azərbaycan İctimaiyyətlə Əlaqələr Mütəxəssisləri Assosiasiyası ilə birgə təşkil edilib. Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov tədbirin mahiyyətindən söz açaraq bildirib ki, dialoq çərçivəsində qurumların ictimaiyyətlə əlaqələr strukturunun media ilə necə əlaqə qurması, əlaqələrdə yaranan problemlər ətrafında müzakirələr təşkil ediləcək. Azərbaycan İctimaiyyətlə Əlaqələr Mütəxəssisləri Assosiasiyasının (APRA) sədri İlham Məmmədov çıxışında bildirib ki, APRA təşkilatı 2016-cı ilin may ayında PR strukturunun Azərbaycanda daha geniş aspektdə tətbiqi, ictimaiyyətlə əlaqələr sahəsində tədrisin mükəmməlləşdirilməsi, kadr potensialının artımı üçün şəraitin yaradılması və bu sahənin hərtərəfli inkişafına nail olmaq məqsədilə yaradılıb. O deyib ki, bəzi dövlət qurumlarında mətbuat xidməti strukturu olsa da, ictimaiyyətlə əlaqələr strukturu, buna məsul şəxs yoxdur: "Ümumiyyətlə, ictimaiyyətlə əlaqələr sahəsində akademik təhsil mövcud deyil. Bu sahənin gələcək inkişafını təmin etməyə çalışacağıq".

Qeyd olunub ki, aprelin 14-də keçiriləcək növbəti tədbirdə beynəlxalq PR mütəxəssisləri də iştirak edəcək. İctimaiyyətlə Əlaqələr Assosiasiyasının fəaliyyətinin vacibliyini vurğulayan "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bu təşkilatın media və ictimaiyyətlə əlaqələr qurumu arasında münasibətlərin tənzimlənməsinə kömək edəcəyinə ümidini ifadə edib. A. Quliyev deyib ki, bu sahədə metodik tövsiyələrin verilməsi çox vacibdir: "Azərbaycanda rəhbərliyi ictimaiyyət tərəfindən tanınmayan mətbuat xidmətləri var. Bəziləri mediaya qapalıdır. Əslində isə bu, onların özünə, fəaliyyətinin işıqlandırılması üçün lazımdır. Mətbuat xidməti rəhbərinin savadı, qələmi olmalı və ictimaiyyətlə əlaqələrin formatını bilməlidir. Bu sahədə kadrların yetişməsinə ehtiyac var". Tədbir qurumların PR və mətbuat xidməti strukturunun fəaliyyəti, məmurların mətbuatdan uzaq düşməsinin səbəbləri, media nümayəndələri və mətbuat xidmətləri arasında əlaqələr və s. mövzular ətrafında müzakirələrlə davam etdirilib.

# Sarkisyan AŞPA-da özünü ifşa etdi

*Azərbaycan 2001-ci il yanvarın 25-də Avropa Şurasına üzv qəbul olundu və bayrağımız ilk dəfə bu mötəbər təşkilatda dalğalandırıldı. Məhz bu tarixi gün Ümummilli Lider Heydər Əliyev öz tarixi çıxışını etdi. Bu tarixi günün ildönümü ərəfəsində - bu il yanvarın 24-də, Strasburqda Sarkisyan yalan və şər-böhtanla dolu çıxış edərək, işğalçılıq siyasətini gizlətməklə öz məkrli niyyətlərini və mövqeyini ortaya qoydu.*



## Sarkisyan törətdiyi hərbi cinayətləri ört-basdır etməyə, ictimaiyyəti aldatmağa çalışır

Ermənistan prezidenti Serj Sarkisyanın Strasburqda Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında çıxışından sonra AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov onu beynəlxalq ictimaiyyəti aldatmaqda və hərbi cinayətlər törətməkdə ittiham edib və çıxışında Qarabağda hərbi birləşmələrə rəhbərlik etdiyi zaman törədilmiş Xocalı soyqırımı haqqında heç nə demədiyinə diqqət çəkib. 25 ildən çox bir müddətdə münaqişənin davam etdiyini nəzərə alsaq, deyə bilərik ki, Sarkisyan beynəlxalq ictimaiyyəti dəfələrlə aldatmağa cəhd edib və hələ də törətdiyi hərbi cinayətləri ört-basdır etməyə çalışır. Ermənistan prezidentinin təcavüzkarlığı ilə yanaşı belə həyasızlığı Azərbaycan ictimaiyyəti ilə yanaşı bütün dünya xalqlarına da bəllidir. Amma nədənsə Avropa Şurası kimi mötəbər təşkilatda bu terrorçunun yalanları hələ də dinlənilir. Belə bir ikiüzlünün fikirləri, ümumiyyətlə, hesaba alınmamalı və nitqinə belə veto və qadağa qoyulmalıdır. Ən azından, təhrif etdiyi məqamlara, söylədiyi böhtanlara, təkcə Azərbaycan tərəfindən deyil, beynəlxalq təşkilatlar tərəfindən də sərt reaksiya verilməlidir. İstər Xocalı soyqırımı olsun, istərsə də Dağlıq Qarabağın digər işğal edilmiş ərazilərində işğalçı rejimin törətdiyi vandallıq, insanlıq normasına sığmayan vəhşiliklər barədə dünya ictimaiyyətində tutarlı arqumentlər və dəlillər var. Türkiyənin "Zeytun Budağı" əməliyyatları fonunda, terrorizmlə mübarizə aparıldığı bir dönəmdə terrorçulara sərt reaksiya verilməməsi qəbul edilən deyil və terrorçuların harda yerləşməsindən asılı olmayaraq, ictimaiyyət bu təzahürləri şərt şəkildə qınamalıdır. Daha doğrusu, Azərbaycanın dünya ictimaiyyətindən gözləntiləri budur.

## Ermənistan prezidentinin susdurulmaması onun həyasızlığının bir az da artmasına zəmin yaradır

Səməd Seyidovun Xocalı soyqırımında hərbi birləşmələrə rəhbərlik etməsi ittihamlarına cavab olaraq Sarkisyan utanmadan, hərbi lider deyil, Qarabağın hüquqları uğrunda ədalətli mübarizənin iştirakçısı olduğunu deyib. Təzadlarla dolu bu cavabdan bir sıra məntiqi suallar doğur. Qarabağda hansı hüquqlar pozulmuşdu və bu hüquqları pozan kim idi, Azərbaycan, yoxsa Ermənistan? Əcəba, Qarabağ Azərbaycan torpağı olduğu halda, onun hüquqlarını erməni terrorçuları niyə müdafiə etməlidir? Hansısa dövlətin ərazisində digər dövlətin, əlxüsus, terrorçuların, seperatçıların nə işi vardı ki, hüquqları da müdafiə etsin? Bu suallar beynəlxalq təşkilatlar, insan haqları, hüquq və azadlıqları müdafiə edən təşkilatlar, demokratik institutlar tərəfindən verilməli idi Sarkisyana. Avropa Şurası kimi mötəbər bir təşkilatda Ermənistan prezidentinin bu sullarla üz-üzə qoyulmaması, susdurulmaması onun həyasızlığının bir az da artmasına zəmin yaradır və bu terrorçu növbəti çıxışında həddini bir az da aşır.

Soyqırımı olmayan, həm də Ermənistan tərəfindən törədilməyən bir şeyi "soyqırımı" adlandırmaq nəyə lazımdır, deyən Serj soyqırımı dedikdə görəsən nə başa düşür? Qoca, cavan, uşaq, körpə olmaqla, mülki əhalinin vəhşicəsinə öldürülməsindən də böyük soyqırımı ola bilərmi? Müxtəlif işgəncələrlə qətlə yetirilmiş, üzərində vəhşilik nişanələri olan cəsədlər barədə arqumentlər, dəlillər ola-ola utanmadan soyqırımı inkar edən Ermənistan prezidentinin həyasızlığı sərhəd tanımır. Cəsədlər üzərində insanlığa sığmayan, təhqiredici hərəkətlərdən daha böyük vandallıq nə ola bilər? Görünür, bu vaxta qədər torətdikləri soyqırımla, vandallıqla müqaisədə bu hərəkətlər hesaba da alınmır bu terrorçunun nəzərində. Amma bunu ona xatırlatmaq tələb olunur və bu missiya təkcə Azərbaycanın deyil, həm də beynəlxalq təşkilatların, özünü demokratik, humanist, hüquq müdafiəçisi kimi qələmə verən dünya dövlətlərinin də üzərinə düşür. Terrorizmlə mübarizə aparmağı güya ki, rəhbər tutan qurumların da vəzifəsidir. Belə terrorçuluğun təzahürlərindən nəzərə almaq lazımdır ki, heç bir dövlət, heç bir zaman sığortalanmayıb və bəzi terror qığılcımlarının olması göstərir ki, belə arzuolunmaz təzahürlər hər an Avropada da, Qərbin özündə də gözlənilləndir. Əgər bu gün Azərbaycanın terrordan əziyyət çəkməsinə digər dövlətlər və beynəlxalq qurumlar dırnaqarası yanaşırlarsa, bir vaxt belə həqiqətlərlə qarşılaşacaqlarına özləri zəmin yaradırlar.

## BMT-nin qətnamələri Azərbaycan deyil, Ermənistan tərəfindən pozulur

Məlumdur ki, Azərbaycan torpaqlarının qeyd-şərtsiz boşaldılması barədə BMT-nin qətnamələri Azərbaycan deyil, Ermənistan tərəfindən kobud şəkildə pozulur və beynəlxalq hüquq normalarına etinasızlıq göstərilir və hörmətsizlik edilir. Bunu da bilmirmi, Avropa Şurasında oturan parlamentarilər? Əgər bilmirlərsə, niyə və hansı haqla oturublar həmin kürsüdə? Yox, əgər bilirlərsə, niyə Sarkisyan bu sessiyada Azərbaycanı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini pozmaqda ittiham edəndə, onu susdurmadılar? Əslində, BMT qətnaməsini pozmaqda ittiham olunanın, məhz Sarkisyanın özü və Ermənistan olduğu niyə deyilmədi? Hələ də hökm sürən ikili standartlar nə vaxta qədər davam edəcək? Yoxsa Azərbaycan sülh danışıqlarına hörmətlə yanaşdıqca, Ermənistan həyasızlıq nümayiş etdirməkdə, beynəlxalq qurumlar da etinasızlıq etməkdə qərarlıdır? Amma Azərbaycan Türkiyə kimi torpaqlarının terrorçulardan təmizlənməsi istiqamətində əməliyyatlara başlayacağı təqdirdə, bunlar qəflət yuxusundan ayılacaq və etinasızlığa son qoyulacaq. Təcrübə sübut edir ki, hər bir qurum aktiv fəaliyyətə keçəcək və danışıqların aparılması, intensivləşdirilməsi istiqamətində dəridən-qabıqdan çıxacaq, guya ki, insan tələfatının qayğısına qalırmış kimi, sülh danışıqlarına cəhd edəcəklər. Nədənsə, aprel döyüşləri, torpaqların terrorçulardan təmizlənməsi əməliyyatları yenə də beynəlxalq təşkilatlar tərəfindən unudulmaq üzrədir və sanki bunun təkrarlanması mümkün deyil. Sessiyada çıxışında, Azərbaycan Qarabağı qaytarmaq istəyir, amma bu, mümkün deyil söyləyən Sarkisyan bilməlidir ki, aprel döyüşlərinə imza atan Azərbaycanın hərbi qüdrəti daha da artıb və bu dəfə separatçıların yaxa qurtarmalarına zərrə qədər ümidi yoxdur. Həmçinin, qardaş Türkiyənin torpaqlarını terrorçulardan təmizlədiyi bir vaxtda, Azərbaycan torpaqlarının erməni separatçılarından təmizlənməsinə hərbi əməkdaşlıq çərçivəsində dəstək olacağını da nəzərə alsaq, bu dəfə işğalçıların darmadağın olacağına şübhə belə ola bilməz.

## Erməni hiyləgərliyi, manipulyatorluğu və Sarkisyanın belə bir variantdan istifadə etməsi təəccüb doğura bilməz

Maraqlıdır, bütün bu həqiqətlərin fərqində olan Sarkisyan, hələ də sülh danışıqlarına, beynəlxalq hüquq normalarına hörmətlə yanaşmadığı halda, Azərbaycanı hüquq normalarına hörmətsizlikdə necə ittiham edə bilər? Milyonlarla qaçqın və məcburi köçkünün yurdyuvasından didərgin düşməsinə səbəb olan, saysız-hesabsız şəhidin qanına bulaşan, işğalçılıq siyasəti ilə dünya ictimaiyyəti arasında ikrahla qarşılanan Serj hansı hüquq pozuntusu uğrunda mübarizədən dəm vurur?

Suallar çoxdur, amma bu separatçıların prezidenti suallara nə cavab verməyə iqtidarındadır, nə də fikrində. Çünki bu suallara cavab vermək üçün Azərbaycan həqiqətlərini etiraf etmək, vicdan məhkəməsini qəbul etmək, ədalət tərəzisini işə salmaq və ədalət ilahəsi Femidanın qılıncının altından keçmək tələb olunur. İkiüzlü bir vandalın, terrorçunun isə haqq və həqiqətlə, vicdan və ədalət deyilən ali prinsplərlə nə əlaqəsi ola bilər? Onun strategiyası hiyləgərlik, həyasızlıq, ikiüzlülük və daha nə kimi alçaq sifətlər üzərində qurulub və elə buna görə də, Azərbaycan Nümayəndə Heyətinin vermək istədiyi suallardan yayınmaq məqsədi ilə ona ayrılmış vaxtdan, reqlamentdən hiyləgərliklə istifadə edərək, boş sözlərdən ibarət çıxışına daha çox vaxt sərf edərək, suallar üçün zaman ayırmadı. Bu erməni hiyləgərliyinin, manipulyatorluğunun bariz nümunəsidir və Sarkisyan kimi bir hiyləgərin belə bir variantdan istifadə etməsi təəccüb doğura bilməz.

Lakin Sarkisyan da, onun rəhbərlik etdiyi işğalçı rejim də, Ermənistan hökuməri də, hətta onların havadarları da bilməlidirlər ki, onların hər dəfə ortaya atdıqları yalan, aforizmdə deyildiyi kimi, ayaq tutsa da, yeriyə bilməz. Erməni yalanlarına alət olmaqdan bir fayda əldə edə bilməyən, bezən və əslində, öz nüfuzunu, imicini təhlükə altında qoyan dünya dövlətlərinin və beynəlxalq təşkilatların artıq Azərbaycan həqiqətlərinin etiraf etməkdən başqa yolu qalmır. Münaqişəyə beynəlxalq hüquq normaları çərçivəsində qiymət verildiyi təqdirdə, bir separatçı prezidentin, yaxud erməni lobbisinin təsiri altında olan bir neçə parlamentarinin manipulyasiyası heç nəyi dəyişə bilməz və Azərbaycan həqiqətləri bütün dünyada qəbul edilməkdədir. Eyni zamanda, bu münaqişənin sülh yolu ilə həll olunmayacağı təqdirdə, Azərbaycanın hərbi yolla öz torpaqlarını geri qaytarmaq, sərhədlərini bərpa etmək iqtidarında və əzmində olmasını nəzərə alsaq, istər Sarkisyanın, istərsə də onun işğalçılıq siyasətini dəstəkləyənlərin həyasızlığının, hiyləgərliyinin mənasız, fəliyyətlərinin nəticəsiz olacağı qənaətinə gəlirik. Azərbaycan bir qarış torpağını da işğalçılara vermək niyyətində deyil və istənilən beynəlxalq təşkilatın münasibəti, ikili standartı, həmin təşkilatı təmsil edənlərin, lobbilərin ədalətsiz mövqeyi, səslənldirilən yalan və böhtanlar Azərbaycanı öz mücadiləsindən, mövqeyindən yayındıra, nəticədə, qələbəsindən məhrum edə bilməz.

**İnam HACIYEV**

## "Sarkisyan qaragüruhçu siyasətini baş nazir postunda davam etdirmək arzusundadır"

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk növbədə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi dayanır. Həmçinin problemin həllində beynəlxalq təşkilatların və böyük dövlətlərin Azərbaycanın hüququnu kəskin surətdə pozulduğunu etiraf etməsi durur". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, bu ilin martın 2-də Ermənistanda keçiriləcək prezident seçkiləri isə formal xarakter daşıyır: "Yəni Ermənistanda siyasi rejim dəyişir. Prezidentli respublikadan parlamentli respublikaya keçiddir. Məqsəd isə indiki prezident Serj Sarkisyanın yenə də hakimiyyətdə qalmasıdır. Prezident sadəcə olaraq dövlət başçısı funksiyasını yerinə yetirəcək və əlində hər hansı bir səlahiyyət qalmayacaq. Sarkisyan isə özünün qaragüruhçu siyasətini baş nazir postunda davam etdirmək arzusundadır. Onlar elə fikirləşirlər ki, forma dəyişməklə ilk növbədə Ermənistanın problemləri azalacaq, rəsmi İrəvanda inkişaf başlayacaq və Dağlıq Qarabağ məsələsində işğalçı ölkənin mövqeyi möhkəmlənəcək. Əlbəttə ki, bu kökündən səhv bir yanaşmadır. Problemin həlli üçün ilk növbədə beynəlxalq hüquq normalarını əsas götürmək, qonşu dövlətlərlə mehriban qonşuluq siyasəti yeritmək lazımdır. Bu isə Serj Sarkisyan və onun hakim komandasında yoxdur. Əlbəttə ki, belə radikallıq ilk növbədə Ermənistanın əleyhinə işləyir. Bu baxımdan Azərbaycan problemin həllini kəskin şəkildə qoyur".

# YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin hesabat-seçki yığıncağı keçirildi

*"Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin, dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir"*



Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin hesabat-seçki yığıncağı keçirildi. Yığıncağı giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Yeni Azərbaycan Partiyasının və partiyanın Binəqədi rayon təşkilatının uğurlu və məqsədyönlü siyasi fəaliyyətindən danışdı. Bildirdi ki, YAP Binəqədi rayon təşkilatı fəaliyyətində daim Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq, həyata keçirdiyi mühüm fəaliyyətin nəticəsi olaraq, mühüm uğurlara imza atıb. Ramiz Göyüşov təşkilatın gənclər birliyinin fəaliyyətinin bundan sonra uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi. Daha sonra çıxış edən YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin sədr əvəzi Fəsli Nəbiyev bildirdi ki, rayon təşkilatının gənclər birliyi tərəfindən Ulu Öndər Heydər Əliyev irsinin araşdırılması, öyrənilməsi və təbliğ edilməsi, ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən mühüm islahatlara, ölkəmizin hərtərəfli inkişafına hədəflənmiş fəaliyyətinə həsr olunmuş ideoloji işlərin aparılması və gənclərin maarifləndirilməsi üçün təxirəsalınmaz işlər görülüb: "Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan dövlət-gənclər siyasəti Binəqədi rayonunda uğurla həyata keçirilir. Bu baxımdan, Binəqədi rayonunda gənclərin inkişafı üçün yaradılmış şərait və görülən işlər xüsusi olaraq vurğulanır".

Hesabat məruzəsi ətrafında çıxış edən YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin fəalı Nicat Şükürlü, Binəqədi rayon gənclər və idman idarəsinin rəisi Elvin Aslanov ölkəmizdə həyata keçirilən dövlət-gənclər siyasətindən bəhs etdilər. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan uğurlu gənclər siyasətinin bu gün də dövlət başçısı Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdilər.

Hesabat məruzəsi səsə qoyularaq, qəbul edildikdən sonra gündəlikdə duran digər məsələlər - YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin 37 nəfərdən ibarət şura və 21 idarə heyətinin üzvlərinin tərkibləri müzakirə olunaraq təsdiq edildi. Həmçinin, yığıncaq iştirakçılarının səsverməsinə əsasən, Fəsli Nəbiyev sədr, Nigar Məmmədova, Anar Əliyev və Fərhad Hacıyev isə sədr müavinləri seçildilər.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov bildirdi ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən düzgün siyasətin nəticəsidir ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, gənclərlə iş sahəsi də uğurla inkişaf edir: " Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev hər zaman gənclərin yanında olmuş və onlara dəstək vermişdir. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi və dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirir. Bu siyasət ardıcıl olaraq davam edir".

Seymur Orucov bildirdi ki, ölkəmizdə bütün sahələrdə layiqincə təmsil olunan gənclər içərisində Yeni Azərbaycan Partiyasının gənclərinin xüsusi rolu var. Belə ki, partiyanın gəncləri öz yüksək intellektual potensialı, savadı, bacarığı və dövlətə, Ulu Öndərin ideyalarına göstərdikləri sədaqətlə daim fərqlənirlər. S.Orucov ölkəmizin iqtisadi sahədə qazandığı uğurlardan da bəhs edərək, Bakı-Tbilisi-Qars dəmiryol xəttinin çəkilməsini, "Əsrin Müqaviləsi"nin müddətinin 2050-ci ilə qədər uzadılmasını, 2 milyardıncı neftin hasil olunmasını dövlət başçısı Cənab İlham Əliyevin məqsədyönlü iqtisadi və siyasi islahatlarının tərkib hissəsi adlandırdı. Çıxışının sonunda Binəqədi gənclərinin aktivliyindən danışaraq partiyanın bütün tədbirlərində, həmçinin, sosial mediada təbliğat işlərinin qurulmasında uğurla çalışdıqlarını nəzərə çatdırdı.

Hesabat-seçki yığıncağında Yeni Azərbaycan Partiyası sıralarına yeni üzv qəbul edilmiş bir qrup şəxsə partiya üzvlük vəsiqələri təqdim edildi. YAP Binəqədi rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup gənc fəxri fərmanla təltif olundu.

Hesabat-seçki yığıncağında yekun nitq söyləyən Binəqədi rayon icra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən, dövlətçiliyimizin möhkəmlənməsinə və xalqımızın rifahına hesablanmış mühüm islahatlardan söhbət açdı. Qeyd etdi ki, müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanın qarşısında böyük imkanlar açır: "Təxirəsalınmaz və müdrik siyasi strategiyanın nəticəsidir ki, ölkəmiz müxtəlif sahələrdə uğurla inkişaf edir. Bu gün müstəqil Azərbaycanımızın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, onu sübut edir ki, ölkəmizin seçdiyi yol düzgündür və bu yol bizi daha uğurlu gələcəyə aparır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin, dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir".

Xaləddin İsgəndərov Binəqədi gənclərinə böyük ümid bəslədiyini bildirərək, onların dövlətimizi və xalqımızı daim ləyaqətlə təmsil edəcəklərinə əminliyini vurğuladı. Həmçinin, bütün gənclərimizi dövlət başçısı İlham Əliyevin ətrafında sıx birləşməyə və dövlətimizə qarşı yönəlmiş bütün təhdidlərə qarşı həmrəy olmağa çağırdı.

***Zümrüd BAYRAMOVA***

# YAP Samux rayon təşkilatında gənclərlə görüş keçirilib

Dünən YAP Samux rayon təşkilatının gənclər birliyinin idarə heyəti üzvlərinin iştirakı ilə dəyirmi masa keçirilib. Dəyirmi masanı giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov oktyabr ayında keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ilə bağlı gənclərə öz tövsiyələrini verərək, vurğuladı ki, Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət insanlar tərəfindən birmənalı tərzdə dəstəklənir, Azərbaycanın həyatında baş verən müsbət dəyişikliklər, hər sahədə qazandığımız uğurlar xalq tərəfindən rəğbətlə qarşılanır: "Bu il ölkəmizdə Prezident seçkiləri keçiriləcək. Biz Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizin və xalqımızın xoşbəxt gələcəyi naminə üzərimizə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirilməsi üçün çalışmalıyıq".

Tədbirdə YAP Samux rayon təşkilatının gənclər birliyinin sədri Arif Ağayev çıxış edərək, təşkilatın sosial şəbəkələrdəki fəaliyyətindən danışdı: "Bu gün insanların həyatında getdikcə daha mühüm rol oynamağa başlayan sosial şəbəkələr ictimai rəyin formalaşmasında və informasiya tələbatının ödənilməsində mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, gənclərin sosial şəbəkələrdən səmərəli istifadə etməsi üçün təbliğat-təşviqat işlərinin aparılması, Azərbaycan həqiqətlərini sosial şəbəkələr vasitəsi ilə dünya ictimaiyyətinə, ilk növbədə, gənc nəslə çatdırılması və sosial şəbəkələr vasitəsilə, yayılması təşkilatın daim diqqət mərkəzində saxlanılır".

Dəyirmi masada çıxış edən gənclər, birmənalı olaraq, vurğuladılar ki, Prezident İlham Əliyevin atdığı hər bir addım, dediyi hər bir söz xalqımızın milli maraqları və milli dəyərləri üzərində qurulub. Dövlətimizin başçısının əsas vəzifəsi ölkəmizin milli maraqlarının qorunmasıdır və əsas fəaliyyətini də bu istiqamətə yönəldib. Adlarını müxalifət qoyan vəzifə hərislərinin isə, əsas fəaliyyətləri ölkəmizin inkişafına mane olmaq, milli maraqlarımıza zərbə vurmaq, inkişafımıza xələl gətirmək və beynəlxalq aləmdə artan imicimizə kölgə salmaqdır. Onlar qarşıdan gələn prezident seçkiləri ərəfəsində hər hansı bir qarşıdurma yaratmaqla beynəlxalq aləmin diqqətini Azərbaycana cəlb etmək istəyirlər. Lakin onların bütün cəhdləri iflasa uğrayacaq. Çünki xalq milli maraqlardan və millilikdən uzaq olan müxalifətə birdəfəlik "yox" deyib.



***NƏZAKƏT***

# "Azərbaycan beynəlxalq müstəvidə mühüm diplomatik paytaxt statusu qazanmaqdadır"



Milli Məclisin deputatı Zahid Orucun yap.org.az-a müsahibəsi

***- Zahid müəllim, Azərbaycanın xarici siyasətinin əsas xəttini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli təşkil edir. Bu yaxınlarda Krakovda Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Minsk Qrupu həmsədrlərinin iştirakı ilə keçirilən görüşü haqqında nə deyə bilərsiniz?***

- Bildiyiniz kimi, 2017-ci ildə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçirilib. Həmsədrlərin və xarici işlərinin Krakov görüşü bu görüşdən sonrakı vəziyyətin təhlili kimi xarakterizə oluna bilər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həll edilməsi strateji zərurətdir. Bu baxımdan, Azərbaycanın xarici siyasət strategiyasında Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi prioritet istiqamətdir. Buna görə də rəsmi Bakı diplomatik müstəvidə özünün bütün resurslarından maksimum surətdə istifadə etməklə münaqişənin həllinə nail olmağa çalışır.

Ötən il ərzində də Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli mövqe sərgiləyib və hücum diplomatiyasını davam etdirib. Azərbaycanın prinsipial mövqeyi və fəal diplomatiyası nəticəsində ölkəmizin ərazi bütövlüyü məsələsi, Dağlıq Qarabağ münaqişəsinin həlli problemi beynəlxalq miqyasda diqqət mərkəzində olub. Hazırda da ölkəmiz diplomatik müstəvidə fəal səylərini davam etdirir.

Əlbəttə, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həllini tapması üçün Ermənistanın qeyri-konstruktiv mövqedən əl çəkməsi lazımdır. İşğalçı Ermənistan bütün çağırışlara qeyri-konstruktiv reaksiya verməkdən əl çəkməli, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bəyanatında əks olunmuş status-kvonun saxlanmasının yolverilməzliyi, hərbi əməliyyatlardan çəkinilməsi və münaqişənin sülh yolu ilə həlli təkliflərinə əməl edilməlidir. Bunun üçün münaqişənin həlli istiqamətində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk Qrupu da öz fəaliyyətinin səmərəlilik səviyyəsini artırmalıdır.

Hesab edirəm ki, Krakov görüşü prezidentlərin növbəti görüşü üçün hazırlıq ola bilər. Bununla yanaşı xarici işlər naziri Elmar Məmmədyarov bildirdi ki, münaqişənin həlli prosesində yeni yanaşmalar var. Ehtimal etmək olar ki, artıq ermənilər əvvəlki qədər şərtli mövqe göstərmirlər. Digər tərəfdən, mümkündür ki, Kasprişikin ofisinin təmsilçilərinin sayının artırılmasında anlaşma tapılır. Amma kimsə düşünürüsə ki, bu təmsilçilər az qala sülhməramlı qüvvələri özündə ehtiva edir, bu, yanlış yanaşmadır. Kasprişik peşəkardır, o, bu bölgədə qocalıb. Bundan sonra onun ətrafına yüzlərlə adamın toplanması real deyil. Sadəcə, ofisdə çalışanların 10 nəfər artırılması imkan verməyəcək ki, onlar Ağdərədən başlayaraq Füzuliyə qədər təmas xəttində bütün gün monitorinq aparsınlar. Əlbəttə, biz bilirik ki, erməni tərəfi münaqişənin həllində hərbi variantı istisna etməyə çalışır. Amma bunun üçün sülh yolu ilə torpaqlarımızdan çıxmalıdır.

Bütövlükdə, düşünmürəm ki, Krakov danışıqları özündə münaqişənin həllini əks etdirən sənəd, real həll planı üzərində gedib. Fikrimcə, bu görüş daha çox təmas xəttində gərginliyin azaldılmasına xidmət edib.

***- Necə hesab edirsiniz, bu il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi bir irəliləyiş mümkün ola bilərmi?***

- 2018-ci ildə hər iki ölkədə seçkilər keçiriləcək. Beynəlxalq ekspertlər də hesab edirlər ki, seçki ilində münaqişənin həlli istiqamətində kardinal addımlar atılması istisna təşkil edir. Artıq Ermənistanda seçki marafonu başlayıb, mart ayında burada prezident seçkiləri keçiriləcək. Amma işğalçı ölkədə idarəçilik sistemi də dəyişdiriləcək. Əgər Sarkisyan baş nazir olsa, daxili vəziyyət gərginləşə bilər. Təbii ki, gərginlik münaqişənin həlli prosesinə təsir edə bilər.

Azərbaycan isə heç bir amilə görə torpaqlarının işğalda qalmasına razı ola bilməz. Bizim mövqeyimiz bundan ibarətdir ki, ölkəmizin ərazi bütövlüyü təmin olunmalıdır. Əgər Ermənistan təxribatlar törədərsə və Azərbaycan hansısa nöqtələrdə özünə qarşı təhdid hiss edərsə tutarlı cavab zərbəsi vuracaq. Belə hallarda, Minsk Qrupu təmas xəttinə gəlib prosesə mane ola bilmir. Artıq hərbi komponent siyasi prosesdə aparıcı rol oynayır. Yəni elə bilin ki, ordu danışıqlarda iştirak edir. Ona görə də, 2018-ci il Dağlıq Qarabağ münaqişəsinin çözümü üçün mühüm istiqamətlər də yarada bilər, proses müəyyən bir toqquşmadan fərqli fazaya da keçə bilər.

Yaxın Şərq hadisələrindən çıxış edərək deyə bilərəm ki, Azərbaycanın qonşu ölkələrlə münasibətlərinin yüksək səviyyədə olması imkan verir ki, biz də Afrindəki kimi lokal ərazilərdə hərbi əməliyyat keçirək. Söhbət münaqişənin tam alovlanmasından getmir. Məsələn, Azərbaycan Cəbrayıl və Füzulidə hərbisizləşdirmə işi apara bilər. Türkiyənin hazırkı addımı bu baxımdan nümunə ola bilər. Düşünürəm ki, hazırki şəraitdə 2018-ci ildə müharibənin başlamayacağı haqda mesajlar, yanaşmalar doğru deyil.

***- Hazırda dünyanın gündəmində olan məsələlərdən biri Dünya İqtisadi Forumudur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib, toplantılarda iştirak edib. Sizcə, Azərbaycanın təqdimatı baxımından Davos Forumunun əhəmiyyəti nədən ibarətdir?***

- Davosda keçirilən Dünya İqtisadi Forumu beynəlxalq aləmdə uzun illər nəinki iqtisadi, həmçinin siyasi müstəvidə dövlətlərin elitasında əsas baxışları, aparıcı iqtisadi tendensiyaları müəyyənləşdirmək üçün böyük imkandır. Son 100 il ərzində siyasi transformasiyalar dəyişib, artıq dördüncü sənaye inqilabından söhbət gedir. Bu Forumda müzakirələr dünyanın beyin mərkəzlərinin, siyasi instiututların, elm mərkəzlərinin, əsas iqtisadi korporasiyaların nümayəndələrinin iştirakı ilə baş verir. Prezident İlham Əliyev hər il Davos Forumunda iştirak etməklə Azərbaycanın uğurlarını dünyaya çatdırır. Bununla da, biz ilk növbədə Azərbaycanın beynəlxalq aləmdə təqdimatının şahidi oluruq.

Bilirsiniz ki, Forumda iştirak edən minlərlə media təmsilçisi aparıcı çıxışları işıqlandırırlar. Prezident İlham Əliyev bu tədbirlərdə sadəcə çıxış etmir, həmçinin iqtisadiyyatımızın daha da inkişaf etdirilməsi, yeni investisiyaların cəlb olunması üçün beynəlxalq korporasiyaların rəhbərləri ilə görüşlər keçirir. Bu görüşlər ölkədə sənayeləşmə prosesinə önəmli təsir göstərə biləcək bir addımlardır ki, nəticə etibarilə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Prezident İlham Əliyev Forum çərçivəsində dövlət və hökumət başçıları ilə də görüşür və qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi məsələləri müzakirə olunur. İsveçrənin Prezidenti, İsrailin Baş naziri ilə görüşlərin nümunəsində biz belə görüşlərin böyük əhəmiyyətini vurğulamalıyıq.

Məlumdur ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Ölkələr bu təbii sərvətdən necə istifadə edir? Bu mövzuda biz cənab Prezidentin Forumda mükəmməl çıxışının şahidi olduq. Prezidentimiz keçirilən tədbirlərdə bir çox sualları da cavablandırıb. Bizi regionda müxtəlif qarşıdurmalara çəkən qüvvələr olsa da, buna getməmişik. Azərbaycan müstəqil siyasət həyata keçirir və buna görə də xaricdən müəyyən hücumlara məruz qalır. Hücumlar müxtəlif dairələrin əli ilə reallaşdırılır. Amma belə cəhdlər həmişə iflasa uğrayır.

Davos Forumu timsalında Azərbaycan ona görə gücludür ki, ölkəmiz bölgəsəl düzəni dəyişən transmilli layihələrə müəlliflik edir. Orta Asiya, Xəzər regionunda reallaşan layihələrdə Azərbaycan aparıcı rol oynayır. Nəzərə alsaq ki, ötən il Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi, şübhə yoxdur ki, Davos Forumunda bu yeni xəttdən istifadə olunması müəyyən şirkətlərin müzakirə mövzusuna çevrilib. Yəni, Davos Forumu bu kimi layihələri təqdim etmək imkanı yaradır. Bütövlükdə, Davos İqtisadi Forumu Azərbaycanın iqtisadi-siyasi maraqları baxımından çox böyük imkanlar açır. Dövlətimiz Forumda fəal təmsil olunmaqla iqtisadi və siyasi dividentlər qazanır.

***- Zahid müəllim, ABŞ silahlı qüvvələrinin generalı, NATO-nun Avropadakı birləşmiş qoşunlarının komandanı Kertis Skaparotti və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimovun Bakı görüşü haqqında da fikirlərinizi bilmək istərdik. Görüşün Bakıda keçirilməsində hansı amillər əsas rol oynayır?***

- İlk növbədə, belə bir görüşün Azərbaycanda keçirilməsi ölkəmizin nüfuzunun göstəricisidir. Ötən ilin fevralında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov və ABŞ Silahlı Qüvvələrinin qərargah rəisləri komitəsinin sədri Cozef Danfordun Bakı görüşünü bəziləri bunu təsadüf adlandıra bilərdilər. Lakin ondan sonra NATO-nun yüksək çinli nümayəndəsi ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin görüş üçün Bakını seçməsi, indi də bu görüş sübut edir ki, Azərbaycan beynəlxalq məkanda etibarlı bir siyasi imici formalaşmaqdadır. Bu fakt onu göstərir ki, Azərbaycan beynəlxalq müstəvidə mühüm diplomatik paytaxt statusu qazanmaqdadır. Bu, sadə və asan bir məsələ deyil. Çünki müxtəlif vuruşan tərəflər üçün bərabər məsafələrin saxlanması kiçik coğrafiyalar üçün çətindir. Biz ötən illər ərzində münaqişələri kürükləməmişik. Əksinə, daha çox tərəflərin yaxınlaşmasına çalışmışıq. Yaxın tariximizə nəzər salanda deyə bilərik ki, ABŞ-la İran arasında vəziyyət gərginləşəndə biz hansısa tərəfin forpostuna çevrilmədik. Həmçinin, 2015-ci ldə Türkiyə tərəfindən Rusiyanın hərbi təyyarəsinin vurulandan sonra bu ölkələrin arasında münasibətlər kəskinləşmişdi. Məhz Azərbaycan tərəfi onların münasibətələrinin normallaşması üçün vasitəçilik etdi və müsbət nəticə əldə olundu. Deməli, bu illər ərzində Azərbaycan bu regionda müstəqil məkan formalaşdırmaq imkanı qazanıb ki, heç bir tərəf tərəddüd etmədən bu məkanı görüş yerinə çevirir.

Azərbaycan tərəflərə danışıqlar meydanı verməklə, əslində beynəlxalq müstəvidə sülhə töhfə verməyə çalışır. Biz həm də burada seçilən mövzuların düzgün nəticə verməsində maraqlıyıq. Azərbaycan çox maraqlıdır ki, ABŞ və Rusiya Bakıda razılaşsınlar. Yəqin ki, bu görüşün əsas mövzusu Yaxın Şərq məsələsi və Ukraynadır. NATO-nu narahat edən məsələlər var. Onlar bura gəlirlər ki, bu kimi ciddi məsələləri danışsınlar. Ən önəmli məsələ odur biz çox arzulayırıq ki, Bakıda kompromislər tapılsın və qərarlar beynəlxalq məkanda vəziyyətə təsir eləsin. Biz istəyirik ki, Bakıdan onlar nəticə ilə qayıtsınlar.

Həmçinin, biz arzu edirik ki, tərəflər arasında belə görüşlər Qarabağ məsələsi ilə bağlı keçirilsin və nəticə əldə olunsun. Azərbaycan beynəlxalq məkanda diplomatik ünvana çevrilirsə buna sevinmək lazımdır və bu mövqeyi gələcəkdə daha da gücləndirməliyik. Bütün bunlar təsdiqləyir ki, Azərbaycan qitələr, regionlar, sivilizasiyalar və dinlərarası bir körpüyə çevrilir.

# Holokost və Xocalı - müasirlərin gözü ilə

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Azərbaycan dağ yəhudiləri və Avropa yəhudi dini icmalarının, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin dəstəyi və təşkilatçılığı ilə "Holokost və Xocalı - müasirlərin gözü ilə" mövzusunda dəyirmi masa keçirilib. Əvvəlcə Holokost və Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbiri açıq elan edən BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov bildirib ki, Xocalı və Holokost soyqırımları zaman etibarilə bir-birindən fərqli vaxtlarda törədilsə də, mahiyyətcə oxşar faciələrdir: "BMT Baş Assambleyası tərəfindən 2005-ci il noyabrın 1-də qəbul olunmuş qətnaməyə əsasən, hər il yanvarın 27-si Holokost qurbanlarının Beynəlxalq Anım Günü kimi qeyd edilir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı sakinləri eyni vəhşiliklərə məruz qalıblar. Bu faciə nəticəsində, 613 nəfər həlak olub, 8 ailə məhv edilib, 275 nəfər əsir düşüb, 150 nəfər haqqında isə heç bir məlumat yoxdur. Uşaq, qadın və əlil olmasından asılı olmayaraq, heç kəsə mərhəmət göstərilmədən vəhşicəsinə cinayət törədilib. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, bir çox dövlətlər Xocalı faciəsini soyqırımı kimi tanıyır və ildən-ilə bu ölkələrin sayı artır".

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Ülviyyə Abbasova tədbirdə məruzə ilə çıxış edərək, bildirib ki, tarixən milli-etnik zəmində düşmənçilik, etnik təmizləmə və soyqırımı siyasətinin qurbanı olmuş Azərbaycan xalqı yəhudi xalqını yaxşı başa düşür, onun üzləşdiyi tarixi fəlakəti öz üzərində hiss edir: "İsrail Prezidenti 2015-ci il yanvarın 7-də Holokost qurbanlarının anım mərasimində çıxışında 1992-ci ilin fevralında Xocalıda qətlə yetirilmiş azərbaycanlılar haqqında danışıb. Məruz qaldığımız soyqırımı faciəsi bizi bir daha birləşdirir. Azərbaycan tarixinin ən qanlı səhifəsi olan Xocalı faciəsinin və Holokost qurbanlarının xatirəsi ölkəmizdə hər il yad edilir. Baş vermiş faciələri unutmaq yeni fəlakətlərə səbəb ola bilər, ona görə də, yaşanmış faciələri xatırlayıb, nəticə çıxararaq, gələcəyə baxmaq lazımdır".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov qeyd edib ki, etnik qrupun, xalqın bu cür hadisə ilə üzləşməsini istəmiriksə, Xocalı soyqırımının səbəbkarları cəzalandırılmalıdır. Cəzasızlıq mühiti olarsa, bu cür faciə başqa xalqlara qarşı da həyata keçirilə bilər.

Xocalı soyqırımından bəhs edən komitə sədrinin müavini bildirib ki, Prezident İlham Əliyevin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl siyasəti nəticəsində, Xocalı soyqırımını tanıyan ölkələrin sayı artır. Həmçinin, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başladılmış "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası bu siyasi kursun həyata keçirilməsində, xüsusilə, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında uzaqgörənliklə düşünülmüş uğurlu strategiyadır.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu tədbirdə çıxışında bildirib ki, yəhudi və Azərbaycan xalqlarını böyük faciələr və qəhrəmanlıqlar birləşdirir: "Holokost və Xocalı faciələri mahiyyətcə eynidir. Holokost qurbanlarının sayı 6 milyondur, onların 1,5 milyonu uşaqlardır. Holokost Xocalı soyqırımı kimi insanlığa qarşı törədilən cinayətdir. Erməni cəlladları tərəfindən insanlığa qarşı törədilmiş qanlı soyqırımı hadisələrini unutmamalıyıq və soyqırımının beynəlxalq aləmdə tanıdılması, eləcə də, bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı işlər aparmalıyıq".

Sonra çıxış edən Azərbaycanda yaşayan dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayev, Avropa yəhudiləri dini icmasının nümayəndələri Lev Şvarts, Yevgeni Brenneysen, AMEA-nın Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə və başqaları çıxış edərək, Azərbaycanda Holokost faciəsinin anılmasının ənənə halını almasını təqdirəlayiq hal kimi qiymətləndirərək, bunun ölkəmizdəki multikultural və tolerant mühitin göstəricisi kimi dəyərləndiriblər. Çıxışlardan sonra dəyirmi masa müzakirələrlə davam edib.

**ZÜMRÜD**

# Binəqədidə "Sülh dini-islam" layihəsinin açılışı olub

***Binəqədi rayonu 83 nömrəli məktəb-liseydə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun X qrant müsabiqəsinin qalibi Nərmin Məhərrəmovanın "Sülh dini - islam" layihəsinin açılış tədbiri keçirilib.***




Tədbiri giriş nitqi ilə açan Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının baş məsləhətçisi Kubra Əliyarlı ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətindən danışıb. Gənclər siyasətinin tərkib hissəsi olaraq, yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun fəaliyyətinin gənclərin fərdi, eyni zamanda, gənclər təşkilatlarının layihələrinin reallaşdırılması üçün olduqca əhəmiyyətli olduğunu bildirib.

Tədbirdə çıxış edən "Sülh dini - islam" layihəsinin rəhbəri Nərmin Məhərrəmova layihənin həyata keçirilməsinə göstərdiyi maliyyə dəstəyinə görə, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna təşəkkürünü bildirib. Qeyd edib ki, islam dininə həsr olunmuş layihənin keçirilməsi ideyası təsadüfi deyil. İslam dininə aid mövzu bu gün kifayət qədər aktualdır. İslam dininin tarixinin və insanları kamilliyə səsləyən bir din olaraq, bütün gözəlliklərinin gənclərimizə aşılanmasının vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının baş məsləhətçisi Rahil Şükürov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu gənclər siyasətindən və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun fəaliyyətindən danışıb.

Daha sonra 83 nömrəli məktəb-liseyin tarix müəllimi Afaq Vəliyev islam dininin tarixi, islam ölkələri, Azərbaycanın islam dünyasında yeri və rolu, ölkəmizdə islam dünyasının həmrəyliyinə hədəflənmiş bir sıra mühüm tədbirlər haqqında geniş məruzə ilə çıxış edib. Bildirib ki, islam dini sonuncu din olaraq, VII əsrdə yaranıb. "İslam" sözü ərəbcə "Allahın iradəsinə itaət etmək" deməkdir. O, həmçinin, islam dininin peyğəmbəri olan Məhəmməd peyğəmbərin həyatından, Qurani-Kərimin nazil olmasından, bu gün islam ölkələrindəki mövcud vəziyyətdən, islam əleyhinə aparılan kampaniyanın dəf edilməsi üçün mühüm işlərin görülməsinin vacibliyindən ətraflı bəhs edib.

**Z. BAYRAMOVA**



*Özünüzə gəlin!..*

**İLHAM**

**Əgər keçmişə atəş açsan, gələcək səni topa tutacaqdır.**
**Otto fon Bismark**

Son vaxtlar Azərbaycanda bir anormal mənzərə yaranıb, əyninə düz-əməlli şalvar geyinib, adi sözləri belə demək imkanına malik olmayanlar şərəfli, qürurverici tariximizi qılınclayırlar, başlarından və yaşlarından utanmadan ağıllarına deyil, ağızlarına gələni yazırlar. Kamran adlı Əsədov soyadlı birisi Şirvanşahlar dövləti haqqında tam erməni maraqlarına uyğun gələn uydurmalar səsləndirir, Sərdar adlı Cəlaloğlu soyadlı birisi Həcər xanım, Koroğlu, Səməd Vurğun haqqında hədyanlar danışır, Fazil adlı Qəzənfəroğlu soyadlı birisi Şah İsmayıl Xətai haqqında söz yığnağından başqa bir şey olmayan açıqlamalar verir. İndi də dünyanın ən tanınmış fikir adamı, dahi satirik şair Mirzə Ələkbər Sabirin kölgəsini qılınclamağa başlayıblar. Vallahi-billahi, ayıbdır. Hərdən fikirləşirsən ki, bu dayaz düşüncəyə, təfəkkürə malik insanlar görən ağılsız hərəkət etdikərinin, bilərəkdən və ya bilməyərəkdən Azərbaycanı istəməyən məkrli qüvvələrin maraqlarına xidmət etdiklərinin fərqindədirlərmi? Hər kəsə bəlli olan fakt, ondan ibarətdir ki, ABŞ-ın və Qərbin bir sıra qaranlıq dairələrinin cızdıqları və hər zaman həyata keçirməyə çalışdıqları plan mövcuddur. Həmin plana görə, dövlətlərinin maraqlarını dünyanın müxtəlif bölgələrində təmin etmək üçün müasir silahlardan istifadə etməkdən öncə, həmin bölgənin əhalisinin mədəniyyətini, dilini, dinini və adət-ənənəsini sıradan çıxarmağa çalışırlar. Gənclərin beyinlərinə müasirlik və yenilik adı ilə xalqların adət-ənənəsinə zidd olan "yeniliklər" gətirməyə çalışırlar. Bunun üçün milyonlar və milyadlarla pul xərcləyirlər. Nəticə vermədikdə, zora əl atırlar. Bunu biz İraqda, Əfqanıstanda, Suriyada, Liviyada və digər bölgələrdə görə bildik. Bu baxımdan, demək olar ki, tariximizin qürurverici səhifələrini öz içimizdən olan kamranların, sərdarların, fazillərin ləkələməyə çalışmaları, birbaşa olmasa da, dolayısı ilə ABŞ-ın və Qərbin qaranlıq dairələrinin qlobal maraqlarına xidmət etdiyini göstərir. Otto fon Bismark deyirdi ki, əgər keçmişə atəş açsan, gələcək səni topa tutacaqdır. Fazillərin, kamranların, sərdarların böyük şəxsiyyətlərimiz, sərkərdələrimiz, şair və yazıçılarımızı ləkələməyə xidmət edən açıqlamaları, fikirləri, yazıları, onu deməyə əsas verir ki, onlar və ətraflarında olanlar tarixi dərslərdən ibrət almayıblar. Bu barədə Georq Vilhelm Fridrix Hegel çox gözəl deyib: "İnsanların tarixdən aldıqları əsas dərs, bundan ibarətdir ki, onlar ondan heç bir dərs ala bilmirlər".

Digər tərəfdən, tarixlə bağlı o şəxslər fikir yürüdə bilər ki, onlar tarixçi alimlərdir, müxtəlif ölkələrin nüfuzlu kitabxanalarında saralmış kağızlar üzərində baş sındırırlar, gecələr yuxusuz qalıb, gündüzlər istirahətin nə olduğunu bilmədən, tədqiqatlar aparırlar. Bunlar isə, loru dillə desək, hapdan-gopdan özlərindən ehtimallar və fərziyyələr irəli sürür, eləcə də, kimdənsə müəyyən tapşırıqlar alıb, başlayırlar yuxarıda qeyd etdiyim kimi, hər zaman qürur duyub, fəxr etdiyimiz tariximiz və tarixi şəxsiyyətlərimizlə bağlı ağızları köpüklənə-köpüklənə, hədyanlar danışmağa və ya yazmağa... Özünüzə gəlin, bəy adı ilə çıxış edib, qul xislətindən hələ də azad ola bilməyənlər!

TƏRS BAXIŞ

***"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının guya hər hansı bir ideya əsasında açdığı "Qaynar qazan" rubrikasının, əslində, ad baxımından plagiat olduğunu çoxları bilir. Çünki vaxtilə fəaliyyəti dayandırılmış ANS telekanalında həmin rubrika əsasında bir sosial-ictimai veriliş gedirdi. İndi, məsələ onda deyil ki, Ə.Zeynallı bu adı oğurlayıb, zatən, onun işi-peşəsi şər-böhtan atıb, haradansa nə isə oğurlamaqdır. O cümlədən, siyasi cinahı radikal müxalifət düşərgəsi olan bu fərd nədənsə, elə özünə sərf edən adamları, məsələn, "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyevi dəvət edir, xüsusilə də, hər hansı bir fikri qarşı tərəfin mövqeyini öyrənmədən tirajlayır. Qərəz, şantajçılıq və qisasçılıq istiqamətində dırnaqarası jurnalistliklə məşğul olan Zeynallı bu gün də ucuz və yararsız fikirləri ilə özünü zorla ictimai rəyə sırımağa çalışır.***

# Əvəz Zeynallının qaynar ləyəni

## *Yaxud şər-böhtan üzərində formalaşmış reket jurnalistin Mehman Əliyev "eşqi"*

Məsələ ondadır ki, onun "Qaynar qazan"ından çox çinnisi tökülmüş ləyəni xatırladan "Oğurluq" rubrikasının növbəti şərçisi (şərhçisi yox haaa-R.N.) elə Mehman Əliyev olub. Hakimiyyətə, dövlət nümayəndələrinə qarşı şər, böhtan, iftira və s. atan həmin M.Əliyev ki, keçmişini axtaranda onun nə qədər kirli işlərlə məşğul olmasını növbəti dəfə qeyd edə bilərik. Xatırlada bilərik ki, M.Əliyevin arvadı zamanında ABŞ-da-Vaşinqtonda, bilavasitə erməni lobbisinin sifarişi əsasında fəaliyyət göstərən QHT-lərin birində koordinator kimi çalışıb. O cümlədən, erməni lobbisi ilə əməkdaşlıq edən digər QHT - "Sülh və Demokratiya İnstitutu" adlı qurumun rəhbəri L.Yunusla yaxından rəfiqəlik edib. Yəni lazım gələrsə, sonradan bu faktları daha müfəssəl qaydada ictimai rəyin diqqətinə çatdıra bilərik.

Ancaq müəyyən səbəblərdən sonra azadlığa buraxılan, uzağı, 18 gün həbsə belə dözə bilməyən M.Əliyev indi yenidən dönüb-olub müxalifətin "mübariz" adamı və girib Ə.Zeynallının qaynar ləyəninə.

### Külli miqdarda pul toplanmışdı..

XATIRLATMA: Hüquq müdafiəçisi Sahib Məmmədovun 2015-ci ildə ölkə saytlarının birinə M.Əliyev barədə verdiyi açıqlamasında qarşı tərəfin heç də sözünə sadiq qalan və kişi xüsusiyyətinə malik olan tələblərə cavab verən insan olmadığını dilə gətirib. Linki də təqdim etməklə, M.Əliyev barədə fikirləri diqqətinizə çatdırırıq.

(http://az.azvision.az/%60Mehman_Eliyev_mene_yalvarirdi...%60_-71924-xeber.html)

SİTAT: "Bu, o adamdır ki, vaxtıilə mən Prezident Aparatında (indiki Prezident Administrasiyası-R.N.) şöbə müdiri işləyəndə, qəbul otağımda gəzirdi. Şəxsi firma təsis eləmişdi və guya Sumqayıtla bağlı film çəkəcəkdi. Mənə yalvarıb, inandırmışdı ki, film çox vacibdir. Mən də Sumqayıt və daha 3 rayon icra hakimiyyəti başçılarına həmin hesablara müəssisələrdən pul köçürülməsini tapşırmışdım. Külli miqdarda pul toplanmışdı. İyun hadisələri baş verdi və bu şəxs həmin pulla indiki "...turan" agentliyini yaratdı, o dövr üçün müasir avadanlıqlar aldı."



Beləliklə, M.Əliyev əgər həqiqətən də, özünü təqdim etdiyi xüsusiyyətlərə malik olsaydı, heç nəyə baxmayaraq, vədinə əməl edərdi, daha baş verən hadisələri bəhanə edib, sonradan əldə etdiyi pul-paranı şəxsi biznesinə çevirməzdi.

### Cəmiyyət bunları qəbul etmir!

Növbəti bir fakta diqqət yetirək. 2013-cü ilin prezident seçkiləri ərəfəsində "Milli Şura"nın Cəmil Həsənlidən öncəki sədri Rüstəm İbrahimbəyovun Rusiya vətəndaşlığından çıxarılması, beləliklə də, Azərbaycana gəlib prezident seçkilərində "vahid namizəd" kimi iştirak etməsi üçün Rusiyanın prezidentinə məktub yazan, daha çox isə yalvarıb-yaxaran M.Əliyev sübut edib ki, o, təkcə rusun deyil, erməninin də qarşısında diz çökməyə hazır ola biləcək qədər xəyanətkar bir fərddir. Çünki "Milli Şura"nın yaradılmasının arxasında Rusiyanın qaranlıq dairələrinin dayanması sübuta yetirilmiışdi, həmin dairələri maliyyələşdirənlər arxasında ermənilərin də olması isbatlanmışdı.

İndi, bu "adam" utanıb-qızarmadan, özünü az qala mələk qismində göstərir, Ə.Zeynallı kimi lüzumsuz "jurnalistlər" isə, necə deyərlər, M.Əliyevin dalına fitil qoyub-odlayırlar ki, ağlına gələn iftiralarını töksün hakimiyyətin üzərinə. Ancaq alınmayacaq. Ona görə alınmayacaq ki, beləleri ya "qaynar qazanlar"da, ifrəyənə qədər qaynayıb, lazımsız məhlullara dönəcəklər, ya da çinnisi tökülmüş ləyənlərdə kif basacaqlar. Çünki cəmiyyət bunları qəbul etmir!

***Rövşən NURƏDDİNOĞLU***

# Cəmil Həsənlinin Əli Kərimli ilə yolları ayrılır

Bu, bir reallığı əks etdirən faktdır ki, müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin böyük əksəriyyəti siyasətə yalnız gəlir mənbəyi kimi baxır. Cəmiyyətin onlara münasibətinin hansı formada olması o qədər də maraq kəsb etmir. Başlıca şərt xarici maraqlı qüvvələr, eləcə də, yerli pozucu qrupların münasibətidir. Əgər belə olmasaydı, 25 ilə yaxındır ki, siyasətdə olub, heç bir uğur qazana bilməyən İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı, Sərdar Cəlaloğlu və digərləri, loru dillə desək, şələ-şüləlerini götürüb, siyasət meydanını tərk edərdilər. Ancaq fakt odur ki, onlar bu reallığı qəbul etmirlər. Hələ də siyasətdədirlər. Başları dəfələrlə daş parçasına dəysə də, nəinki siyasətdən, hətta sədrlik kreslosundan əl çəkmək fikrində deyillər. Fikir verin, 1993-cü ildən bu günə qədər keçirilən prezident, parlament və bələdiyyə seçkilərində müxalifət düşərgəsində təmsil olunan dağıdıcı müxalif partiyalardan cüzi səs qazanıb, seçkili orqanlarda təmsil olunan olmayıb.

### Uğursuzluq müxalifətin alın yazısıdır

Səbəb yenə də bəllidir. Cəmiyyət dağıdıcı müxalif ünsürləri qəbul etmir. İctimaiyyət datıdıcı və pozucu fəaliyyət yolu tutan qəmbərləri, kərimliləri və hacıları qətiyyətlə rədd edir. Ancaq görünən odur ki, dağıdıcı ünsürlər ictimai rəyin haqlı mövqeyini reallıq kimi qəbul edib, siyasətdən getmirlər. Hətta hər seçkiərəfəsi müxtəlif şoular və məzhəkələr qurmaqla, seçkidə iştirak etmək niyyəti ilə hazırlıq işləri aparırlar. Bu dəfə də belədir. 2018-ci ilin oktyabr ayında keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ilə bağlı dağıdıcı müxalifət partiyaları içində geniş və ardıcıl iş aparılır. İş aparılır deyəndə, Müsavatdan İ.Qəmbər, AXCP-dən isə Ə.Kərimli seçkilərdə iştirak etmək niyyəti ilə sosial şəbəkələrdəki muzdlu "dostları" vasitəsilə şər-böhtan xarakterli xəbərlərlə gündəmə gəlməyə çalışırlar. Amma aparılan araşdırmalara və bunun əsasında gəlinən nəticəyə görə, sosial şəbəkə istifadəçiləri belə müxalif ünsürlərin şər-böhtanlarını əhəmiyyətsiz hesab edirlər. Bəzən isə, onlara əsaslandırılmış arqumentlərlə cavablar verirlər. Maraqlıdır ki, Ə.Kərimlinin, İ.Qəmbərin və digərlərinin sosial şəbəkələrdəki əlaltıları faktlar qarşısında aciz qaldıqlarından çıxış yolunu şəbəkədəki status yazan dostlarını bloklamaqda görürlər.



### "Milli Şura" qaranlıq kölgəyə çevrilir

Siyasi mübarizədə olduğu kimi, sosial şəbəkələrdə də ağır məğlubiyyətə uğrayan kərimlilər bu dəfə fəaliyyətlərini təmsil olunduqları "Milli Şura"da qurmağa çalışırlar. Çünki Ə.Kərimli- nin "Milli Şura"nın namizədi olmaq məsələsində C.Həsənli probleme çevrilib. "Milli Şura"nın sədri heç vəchlə namizədlik iddiasından imtina etmək fikrində deyil. Bu isə "şura" daxilində, onsuz da gərgin olan münasibətlərin daha da dərinləşməsinə gətirib çıxarır. Alınan məlumatlara görə, C.Həsənli Ə.Kərimli qarşısında ultimativ tələb qoyub. Namizəd olmayacağı təqdirdə, "Milli Şura"nın sədrliyindən istefa verməklə, qurumun buraxıldığını elan edəcək. Bu tələb Ə.Kərimli üçün ciddi narahatlıq yaradıb. Ona görə də, C.Həsənlinin yola gətirilməsi üçün "Milli Şura"nın yaradılmasında maddi və mənəvi dəstək göstərmiş xarici qüvvələrlə müəyyən danışıqlar və sövdələşmələr aparır. Danışıqların nəticəsiz qalacağı təqdirdə, Ə.Kərimlinin vəziyyətinin fənadan da ağır olacağı şübhəsizdir.

***İ.ƏLİYEV***

# Tramp Böyük Britaniyaya səfər edəcək

ABŞ prezidenti Donald Tramp Böyük Britaniyaya səfər edəcək. Teleqraf.com xəbər verir ki, bu barədə Britaniya rəsmiləri məlumat verib. Səfərin dəqiq tarixi açıqlanmayıb. Qeyd edək ki, Trampın fevral ayında Britaniyaya səfər edəcəyi planlaşdırılsa da, sonradan bu səfər ləğv edilib. Davosda İngiltərənin baş naziri Tereza Meylə görüşən Tramp birgə mətbuat konfransında iki ölkə arasındakı münasibətlərin möhkəmliyini nəzərdə tutaraq "sizə bir şey olsa, yanınızdayıq, sizin üçün mübarizə aparacağıq", deyə bildirib. Xatırladaq ki, 2017-ci ilin yanvarında Britaniya kraliçası II Elizabet Trampı ölkəsinə dəvət etmişdi. Amma İngiltərə ictimaiyyətindəki təpki üzündən səfər təxirə salınıb. Trampın Britaniyaya səfər etməməsi üçün 2 milyon imza toplanıb. Parlamentin sədri Con Berkov isə bildirib ki, əgər Tramp Londona səfər etsə onu çıxış üçün parlamentə dəvət etməyəcək.

# İl ərzində 3,3 milyondan çox yol hərəkəti qayda pozuntusu qeydə alınıb

Dövlət Yol Polisi tərəfindən il ərzində 3,3 milyondan çox yol hərəkəti qayda pozuntusu qeydə alınıb. Bunlardan 9,4 minə yaxını nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə edilməsi, 1,7 milyondan çoxu sürət həddinin aşılması, 140,5 min ötmə, manevr və qarşıdan gələn nəqliyyatın hərəkət zolağına çıxma, 135 minə yaxını isə yolayrıcını keçmə qaydalarının pozulması ilə bağlı olub. AZƏRTAC xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsində 2017-ci ildə yol hərəkəti təhlükəsizliyinin təmini sahəsində görülən işlər və qarşıda duran vəzifələrə həsr olunmuş geniş əməliyyat müşavirəsində idarənin rəisi, polis general-mayoru Ramiz Zeynalov deyib. Baş İdarə rəisi bildirib ki, qayda pozuntularına görə 10 min 996 nəfərin sürücülük hüququ məhdudlaşdırılıb. Həmin inzibati xətaların 63,3 faizi xüsusi texniki vasitələrin köməyi ilə, qalanları isə "İ-patrul" sistemi vasitəsilə və əməkdaşlar tərəfindən aşkarlanıb.

# Tahir Kərimli: “Faciə günü də Əli Kərimlinin şou yaratmağa çalışması onun bütün kriteriyaları aşdığını göstərir”

***- Tahir bəy, 20 Yanvar faciəsinin ildönümü günü Əli Kərimli şou yaratmağa cəhdlər göstərdi. Faciə günü də Ə.Kərimlinin bu cür mövqe sərgiləməsi ilə artıq onun bütün kriteriyaları aşdığını demək olarmı?***

- 20 Yanvar elə bir gündür ki, həmin gün iqtidar-müxalifət fərqi olmalı deyil. Şəhidlər Xiyabanında yatan şəhidlərimizin müqəddəs ruhu qarşısında hər kəs susmalıdır, əsasən də, müxalifət düşərgəsini təmsil edən şəxslər. Yəni 20 Yanvar faciəsinin ildönümü günündən müxalifət partiya sədrləri öz məqsədləri üçün istifadəm etməməlidirlər. Bir sözlə, 20 Yanvar faciəsinin ildönümü günü Şəhidlər Xiyabanına şəhidlərimizi ziyarətə gə-



*Müsahibimiz Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimlidir*

lən insanların diqqətini özlərinə cəlb etmək təqdirəlayiq hal deyil. Faciəmiz günü də Ə.Kərimlinin şou yaratmağa çalışması onun bütün kriteriyaları aşdığını göstərir. Özlərinin sosial bazasını itirdikləri halda, müxalifət təzədən Şəhidlər Xiyabanını ziyarətə gələn insanlardan faydalanmaq istəyiblər. Amma onlar başa düşmürlər ki, müxalifətçilər belə hərəkətlərə əl ataraq, xalqın gözündən düşürlər. Qəti şəkildə biz bunu pisləyirik. Bununla belə, əminliklə demək olar ki, Ə.Kərimli və onun ətrafında olanlar nə isə bir şou yaradaraq, özlərinə siyasi dividend qazana bilməzlər. Çünki Ə.Kərimli cəmiyyətdə qəbul edilmir. Onun anormal əməlləri ikrah doğurur. Müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də çox gözəl bilirlər ki, onların xalq tərəfindən heç bir sosial bazası yoxdur və onlar hər hansı bir məsələni gündəmə gətirməklə heç vaxt uğur qazana bilməyəcəklər.

***- Əli Kərimlinin seçkilərdə namizəd qismində çıxış etməsi nə dərəcədə onun üçün uğurlu olacaq?***

- Müxalifət qəbul etməlidir ki, onların hakimiyyətə gəlmələri mümkün olmyacaq. Çünki xalq tərəfindən onların heç bir dayağı yoxdur. O cümlədən də, müxalifət düşərgəsində partiyalar arasında ciddi ixtilaflar mövcuddur. Belə olan halda, onlar hansı ümidlə gələcəyə baxırlar. Sadəcə olaraq, qurduqları xəyallar ətrafında danışmağı xoşlayırlar. Çünki müxalifət bir-birinə qarşı səmimi deyil. Bu baxımdan da, onlar uğura doğru deyil, bataqlığa istiqamət almaqdadırlar.

***- İsa Qəmbər və Əli Kərimli özlərini müxalifət düşərgəsində ən şanslı namizədlər hesab edirlər. Bu barədə nə deyə bilərsiniz?***

- Ümumiyyətlə, bu gün müxalifətdə olan hər bir partiya sədri özünü bu il keçiriləcək prezident seçkilərində şanslı namizəd kimi görür. Mümkün deyil ki, İ.Qəmbər və Ə.Kərimli özünü müxalifətin ən şanslı namizədi kimi görsün. Ümumiyyətlə, insanın özü haqqında mülahizə yürütməsi düzgün qəbul olunmur. Demək olar ki, radikal müxalifət düşərgəsində olan şəxslərin hər biri bir-biri ilə mübarizə aparırlar. Bu da, onların sıradan çıxmasına gətirib çıxaran amillərdəndir.

**GÜLYANƏ**

# Müxalifətyönümlü siyasiləşmiş QHT-lərin xəyanətkarlığı ifşa olunur

***QHT-lər hər hansı bir ictimai maraqların təmin edilməsi istiqamətində birləşmiş könüllü qruplardır. Bu qrupların fəaliyyəti onların nizamnaməsi ilə tənzimlənir. Hər bir QHT-nin özünün nizamnaməsi olmalıdır ki, onun bütün fəaliyyəti, məhz həmin nizamnamə üzrə qurulsun. Nizamnamədə isə siyasi fəaliyyət, yaxud hər hansı bir siyasi düşərgənin missiyasına xidmət etmək kimi fəaliyyət təsbit olunmur.***

Nə yazıq ki, bəzi QHT-lər öz nizamnamə məqsədlərindən kənara çıxaraq, siyasi fəaliyyətlə məşğul olmağa cəhd göstərir və yaxud ayrı-ayrı siyasi partiyaların mövqelərindən çıxış edirlər. Yəni ayrı-ayrı siyasi partiyaların çirkin məqsədlərinə çatması üçün onlara müəyyən dəstək verirlər. Bu cür hərəkətlər qanunla yolverilməzdir.

Təəssüflər olsun ki, dünya praktikasında özünəməxsus vəzifə və səlahiyyətlərini unudub, yalnız şəxsi və korporativ maraqlarını təmin etmək məqsədi güdən bir qrup şəxsin idarə etdiyi siyasiləşmiş QHT-lər də var. Ölkəmizdə də bu cür QHT-lərin sayı heç də az deyil. Onların əsas gəlir mənbələri xarici donorların ayırdıqları qrantlardır. Bəzi təşkilatlar göndərdikləri məlumatlarla Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlarda ölkəmizə qarşı qərəzli kampaniyalar təşkil etməklə məşğuldurlar. Bu şəbəkənin əsas fəaliyyət istiqamətlərindən biri də Azərbaycan dövləti və hakimiyyətin siyasəti haqqında müsbət mövqedə olan və müsbət fikirlər səsləndirən ictimaiyyət nümayəndələrini, ziyalıları, habelə, Azərbaycana dost münasibəti olan xarici təşkilatları, ekspertləri gözdən salmaq və onlara qarşı inamsızlıq mühiti yaratmaqdır.

Bəzi müxalif siyasi partiyalar bir neçə QHT yaradıb, daha sonra siyasi maraqlarını həmin təşkilatlar vasitəsilə həyata keçirirlər. Həmin QHT-lər dövlət qeydiyyatından keçmək belə istəmirlər. Çünki belə olan halda, dövlət hesabatından yayınaraq, yalnız öz donorlarına hesabat verirlər. Bu təşkilatlar siyasətə qarışaraq, hansısa bir siyasi partiyanın maraqlarına xidmət edirsə, onların siyasi partiyadan heç bir fərqi qalmır. Eyni zamanda, bu cür təşkilatlar müxalif qüvvələrin təsiri altında dövlətin milli maraq və mənafelərinin ziddinə fəaliyyət göstərirlərsə, təbii ki, bu cür siyasiləşmiş QHT-lər cəzasız qalmamalıdırlar.




### Siyasiləşmiş QHT-lər müdafiəçilərinin marioneti, buyruq qullarıdır və fəaliyyətləri xəyanətə köklənib

Araşdırmalar göstərir ki, barəsində söhbət gedən QHT-lər, əsasən, Qərbdən qrant alır, onların verdiyi maliyyə hesabına müxtəlif layihələr həyata keçirirlər. Bu fonda, həmçinin, belə demək mümkünsə, həmin dairələrin sifarişlərini də icra edirlər. Lakin qanunları pozmalarına, yaratdıqları QHT-lərə özlərinin şəxsi varlanma mənbəyi kimi yanaşmalarına baxmayaraq, Qərb ölkələri bunları bilə-bilə hələ də onlarla əməkdaşlıq edir. Hətta fürsət düşən kimi bu istiqamətdə əməkdaşlığı genişləndirməyə də çalışırlar. Xaricdən qrant alan QHT-lər, məhz onların maraqlarına xidmət etdiklərinə görə, sifarişlərini yerinə yetirdiklərinə görə, Qərb dairələri də bu qüvvələri müdafiə etməkdə və əməkdaşlığı genişləndirməkdə davam edirlər.

“Sülh və Demokratiya İnstitutu”nun rəhbəri Leyla Yunus və onun kimi xəyanətkarların fəaliyyəti, artıq cəmiyyətimizə bəllidir. Bunları QHT adlandırmaq da doğru deyil. Çünki bunlar ictimai maraqların təmin edilməsi istiqamətində, ictimai həyatın ayrı-ayrı sahələrinə xidmət edən, humanitar, könüllü fəaliyyətlə məşğul olmur, cəmiyyət və dövlətə qarşı qərəzli mövqe nümayiş etdirirlər. Onların nümayiş etdirdikləri siyasi fəaliyyətdən açıq görünür ki, bunlar ölkəmizə qənim kəsilmiş şəxslərdir. Bu şəxslər Azərbaycan dövlətinin əldə etdiyi uğurlara paxıllıq hissi ilə yanaşırlarsa, bu uğurlara nə isə bir kölgə salmağa çalışırlarsa, deməli, fəliyyətləri, bütövlükdə, milli maraqlarımıza zidd olan bir hərəkətlərdir.

Bir çox QHT-lər yalnız özlərini qanunların müdafiəçisi kimi qələmə verməyə çalışırlar. Amma bu heç də belə deyil. Həmin QHT-də İdarə Heyətinin, Nəzarət-Təftiş Komissiyası kimi qurumların olduğunu görmürük. Həmin QHT-lərin hansısa bir ictimai faydalı əməyinin də şahidi olmamışıq. Deməli, bu QHT-lər ancaq bəzi xarici təşkilatların təsiri altına düşüb, maddi həvəsləndirmə, açacaqları vəsaitlər müqabilində, xəyanətkarcasına ölkədə sabitliyi pozmaq istiqamətində fəaliyyət göstərməyə çalışırlar.

Azərbaycan qanunvericiliyində QHT-lərin fəaliyyətini tənzimləyən və pozucu hərəkətlərin qarşısını almaq üçün kifayət qədər müvafiq müddəalar vardır. Bu müddəalara əməl etmək isə, hər bir QHT və vətəndaşın borcudur. Əlbəttə, bu müddəalar heç də QHT fəaliyyətini məhdudlaşdırmağa, onların işini çətinləşdirməyə yönəlməyib. Lakin qanunun tələblərinə əməl etmək hər bir QHT və vətəndaşdan tələb olunmalıdır.

**İnam HACIYEV**

## Polis qanunsuz saxlanılan 4 silahı müsadirə edib

Daxili işlər orqanları tərəfindən qanunsuz saxlanılan silahsursatın aşkar edilərək götürülməsi, eyni zamanda könüllü təhvil verilməsi məqsədilə uğurlu əməliyyat-axtarış və profilaktiki tədbirlər davam etdirilir. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yanvarın 25-də Yasamal Rayon Polis İdarəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Şərur rayon sakini, əvvəllər məhkum olunmuş İntiqam Bağırov saxlanılıb. Onun çantasına baxış zamanı nömrəsi silinmiş “Makarov” markalı tapança, 3 ədəd patron və 1 ədəd patron darağı aşkar edilib.

Həyata keçirilən digər tədbirlər nəticəsində Neftçala Rayon Polis Şöbəsinin əməkdaşları Həsənabad qəsəbə sakini Çingiz Ağayevin yaşadığı evə baxış zamanı, Ucar Rayon Polis Şöbəsinin əməkdaşları isə Göyçay rayon sakini Daşqın Məmmədovdan ümumilikdə, 2 ədəd müvafiq sənədləri olmayan “TOZ” markalı tüfəng götürüblər. Saxlanılan şəxslər götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil veriliblər. Faktlarla bağlı cinayət işləri başlanılıb. Həmçinin, aparılan profilaktiki tədbirlər nəticəsində Bakı şəhər sakini Qəhrəman Cəfərov tapdığı 1 ədəd “AKS 74” markalı nömrəsi silinmiş avtomat silahını, 8 ədəd patron və 1 patron darağını könüllü olaraq Yasamal RPİnin 28-ci Polis Bölməsinə təhvil verib.

## Külli miqdarda narkotik tutuldu

Respublikanın daxili işlər orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri qətiyyətlə davam etdirilir. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, bu istiqamətdə həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 25-də ümumi çəkisi 12 kiloqrama yaxın müxtəlif növ narkotik vasitə, o cümlədən 2 kiloqramdan artıq heroin, 8,5 kiloqramdan çox tiryək və 1,3 kiloqrama yaxın marixuana götürülüb.

Yasamal Rayon Polis İdarəsinin 27-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ağakərim Axundovdan 1 kiloqram 671 qram heroin götürülüb. Biləsuvar Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Cəlilabad rayon sakini Nurid Əhmədovun idarə etdiyi “VAZ-2106” markalı avtomobilə baxış keçirilib. Oradan sürücü və sərnişini, həmyerlisi, əvvəllər məhkum olunmuş Zaur Məmmədova məxsus 8 kiloqram 520 qram tiryək aşkar edilib. Quba Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Zərdabi kənd sakini Yadigar Əlizadədən 321 qram heroin, Mingəçevir Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Vurğun Abdulovdan 453 qram, Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Əliabad qəsəbə sakini Elgüc Ağaməmmədovdan 21,9 qram, yaşadığı evə baxış zamanı isə əlavə 435 qram marixuana aşkar edilərək götürülüb. Saxlanılan şəxslər götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil veriliblər. Faktlarla bağlı cinayət işləri başlanılıb.

# İnsanın və vətəndaşın hüquq və azadlıqlarının əlamətləri, strukturu və prinsipləri

***Bütün ölkələrin konstitusiyalarının, o cümlədən, Azərbaycan Respublikası Konstitusiyasının müəyyənləşdirdiyi və həll etdiyi başlıca məsələlərdən biri şəxsiyyətin hüquqi statusu (vəziyyəti) məsələsidir. Şəxsiyyətin hüquqi statusu (insanın konstitusion statusu) dedikdə, konstitusiyada təsbit edilən əsas insan və vətəndaş hüquqlarının (azadlıqlarının) və vəzifələrinin məcmusu başa düşülür.***

İnsan hüquqları (azadlıqları) və onların prinsipləri: şəxsiyyətin hüquqi statusu özündə ən əsas və başlıca hüquqları əhatə edir. Bu hüquqları (azadlıqları) iki qrupa bölmək olar:

- İnsan hüquqlarına (azadlıqlarına);
- vətəndaş hüquqlarına.

İnsan hüquqları (azadlıqları) dedikdə, bütün insanların malik olduğu hüquqlar (azadlıqlar) başa düşülür. Bu hüquqları (azadlıqları) insan doğulduğu andan, insanın doğulması ilə, necə deyərlər, "avtomatik surətdə" əmələ gəlir. Özü də insanlar göstərilən hüquqları (azadlıqları) yaşadığı dövlətə mənsubiyyətindən, həmin dövlətin vətəndaşı sayılmasından asılı olmayaraq, əldə edirlər. Bir daha təkrar edərək, göstərilir ki, dövlət öz qanunları ilə vətəndaşlarına bu cür hüquqlar verə bilməz, çünki həmin hüquqları insanlar doğulan kimi qazanırlar.

Azərbaycan Respublikasının Konstitusiyası insanın və vətəndaşın hüquq və azadlıqları təsbit olunmuşdur. Vətəndaş hüquqları fərdin dövlətlə münasibətlərini ifadə edir. İnsanın hüquqlarını dövlət qanunsuz müdaxilədən müdafiə edir. Vətəndaşın statusunu onun dövlətlə xüsusi hüquqi əlaqəsi - vətəndaşlıq institutu müəyyən edir. Vətəndaş hüquqlarından fərqli olaraq, insan hüquqları yalnız mənəvi və sosial kateqoriya kimi çıxış edir. İnsan hüquqlarına aşağıdakı əlamətlər xarakterikdir:

**1.** İnsan hüquqları insanın təbiiliyi və sosiallığının vəhdəti əsasında meydana gəlir və inkişaf edir;
**2.** Obyektivdir;
**3.** İnsana anadangəlmə məxsusdur;
**4.** Toxunulmazdır, pozulmazdır, təbiidir;
**5.** Birbaşa qüvvəyə malikdir;
**6.** Ali nemətdir;
**7.** Hüququn zəruri hissəsidir;
**8.** İnsan və dövlət arasında qarşılıqlı münasibətlərin prinsip və normalarını özündə əks etdirir;
**9.** Dövlət tərəfindən müdafiə olunur.

Azərbaycan Respublikasının Konstitusiyasının "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan fəslində yuxarıda göstərilən prinsiplər üzrə hüquq və azadlıqları göstərilmişdir.Göstərilən hüquq və azadlıqlar Azərbaycan Respublikası ərazisində olan, Azərbaycan Respublikası vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olmasından asılı olmayaraq, hər kəs üçün tanınır, vətəndaşlar insan hüquqlarından tam həcmdə istifadə etdikləri halda, dövlətin vətəndaşı olmayan, lakin dövlət ərazisində müvəqqəti olan və ya daimi yaşayan şəxslər, yəni əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, yalnız qanunla nəzərdə tutulan hallarda vətəndaş hüquqlarında olmayan şəxslər, yalnız qanunla nəzərdə tutulan hallarda, vətəndaş hüquqlarından istifadə edə bilərlər. Əsasən, siyasi hüquqlar - vətəndaşlıq hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ və müraciət etmək hüququ yalnız Azərbaycan Respublikası vətəndaşlarına məxsusdur. Konstitusiyada yalnız Azərbaycan Respublikası vətəndaşlarının əsas vəzifələri aşağıdakılardır:

-Vətənə sədaqət,
-Vətəni müdafiə,
-Dövlət rəmzlərinə hörmət

Azərbaycan Respublikasında insan hüquqlarının təmini üzrə vəzifəni öz üzərinə götürən dövlət, ondan qanunlarda öz əksini tapmış normalara uyğun davranış tələb edir. Dövlət fərdə qarşı öz tələblərini vəzifələr sistemi şəklində irəli sürür. Vəzifə isə, insanın obyektiv zəruri və məcburi davranışıdır. Vəzifə, hüquqi statusun hüquq və azadlıqlar qədər əhəmiyyətli elementidir. Onlar qırılmaz şəkildə bir-birinə bağlıdırlar və bir-birindən asılı olmadan mövcud ola bilməzlər. Bu cür asılılıq insanların əxlaqi qarşılıqlı fəaliyyətini yaradır. "İnsan hüquqları haqqında ümumi bəyannamə"nin 1-ci maddəsi bəyan edir: "Bütün insanlar azad, hüquq və ləyaqətlərinə görə bərabər doğulurlar. Onlar idrak və vicdana malikdirlər və bir-birilə qardaşlıq ruhunda davranmalıdırlar".

Beləliklə, hüquq, azadlıq və vəzifələri ehtiva edən insan və vətəndaşın hüquqi statusu, insanların bir-birilə qarşılıqlı əlaqəsinin tarazlaşdırılmış üsullarının yaradılmasına və fərdin cəmiyyətin və dövlətin normal münasibətlərinin qurulmasına məqsədyönlü şəkildə təsir göstərir. İnsan və vətəndaşın hüquqlarından danışarkən, əlbəttə ki, birinci növbədə onların bugünkü həyata keçirilməsi mexanizmləri və üsullarından danışmaq zərurəti yaranır. Burada da, insan hüquqlarının mövcudluğu və fəaliyyəti prinsiplərinə toxunmaq çox vacibdir.

Bu prinsiplər, özünə demokratik xarici ölkələrdə insan və vətəndaş hüquq və azadlıqlarının inkişafının mütərəqqi təcrübəsini, həmçinin də, "İnsan hüquqları haqqında ümumi Bəyannamə"də, "Mülki və siyasi hüquqlar haqqında Pakt"da, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq Pakt"da, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında" və bir sıra digər universal və regional aktlarda əks olunmuş, insan hüquqları müdafiəsinin beynəlxalq-hüquqi aspektlərini mənimsəyərək, öz əksini Azərbaycan Respublikasının Əsas Qanununda - Konstitusiyada tapmışdır.

Əsas Qanununda:

- ümumilik, ayrılmazlıq, pozulmazlıq və toxunulmazlıq prinsipləri,
-bərabərlik prinsipi,
-dövlət müdafiəsi prinsipi,
- insan və vətəndaşın hüquqi statusunun əsas prinsipləri təsbit olunmuşdur.

İnsan və vətəndaşın hüquqi statusunun bütün bu konstitusion prinsipləri Azərbaycan dövlətinin insan və vətəndaşın hüquq və azadlıqları sferasında siyasətinin əsas istiqamətlərini müəyyən edir və onların hüquqi statusunun əsasını təşkil edir. Azərbaycan Respublikası Konstitusiyasında göstərilir ki, əsas hüquq və azadlıqlar toxunulmazdır və hər kəsə anadangəlmə mənsubdur.

İnsan və vətəndaşın hüquqi statusunun əsas prinsiplərdən başqa digər prinsiplərə aşağıdakıları da aid etmək olar:

**1.** dövlət insan hüquqlarını müdafiə edir;
**2.** insan hüquqları ali sərvətdir,
**3.** insan hüquqları hakimiyyət üzərində nəzarət vasitəsidir,
**4.** insan və vətəndaşın hüquq və azadlıqlarının təmini zamanı ayrı-seçkiliyə yol verməк olmaz;
**5.** insan hüquq və azadlıqlarının təmin olunması başqalarının hüquq və azadlıqlarını pozmamalıdır;
**6.** hər hansı bir dövləin ərazisində əsas hüquq və azadlıqlar eyni olmalıdır;
**7.** şəxsi, siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqlar bərabər səviyyəlidirlər;
**8.** kollektiv hüquqlar fərdin hüquqlarıdan ayrılmazdırlar,

İnsan və vətəndaş hüquq və azadlıqları mürəkkəb struktura malikdirlər. Onları aşağıdakı kriteriyalar üzrə təsnifləşdirmək olar:

**1.** Əsas hüquq və azadlıqları üç mərhələyə bölmək olar:
**1.** şəxsi və siyasi hüquq və azadlıqlar,
**2.** sosial, iqtisadi və mədəni,
**3.** ümumbəşəri,
**2.** Məzmununa görə onlar 5 yerə ayrılır:
**1.** şəxsi,
**2.** siyasi,
**3.** iqtisadi,
**4.** sosial,
**5.** mədəni,
**3.** Tabeçiliyinə görə:
**1.** əsas,
**2.** əlavə hüquq və azadlıqlar mövcuddur.
**4.** Hər hansı bir dövlətə mənsubiyyətindən asılı olaraq:
**1.** Azərbaycan vətəndaşlarına aid hüquq və azadlıqlar;
**2.** xarici vətəndaşlara aid hüquq və azadlıqlar;
**3.** ikili vətəndaşlara aid hüquq və azadlıqlar;
**4.** vətəndaşlığı olmayan şəxslərə aid hüquq və azadlıqlar vardır.
**5.** Yayılması dərəcəsindən asılı olaraq:
**1.** ümumi (bütün vətəndaşlara aid);
**2.** xüsusi (sosial, xidməti, yaş və s. faktorlardan asılı olaraq).
**6.** Subyektlərin xarakterindən asılı olaraq:
**1.** fərdi,
**2.** kollektiv.
**7.** Onların həyata keçirilməsində dövlətin rolundan asılı olaraq:
**1.** neqativ,
**2.** pozitiv hüquq və azadlıqlar vardır.

Beləliklə, Azərbaycan Konstitusiyası hüquqi dövlətin əsas prinsipləri olan qanunun aliliyinin, ümumi bərabərliyin hüquq və azadlıqların, hakimiyyətin bölgüsü və hakimiyyət üzərində nəzarətin, prezidentlik təsisatının reallaşmasının əsas təminatçısıdır.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası ölkənin demokratik və sivil yolla inkişafının ən başlıca təminatıdır. Azərbaycan Prezidenti İlham Əliyev də fəaliyyətində daim Əsas Qanuna istinad edərək, respublikada ümumbəşəri demokratik dəyərlərin, hüquqi dövlət quruculuğunda qanunun aliliyinin tam təminatına çalışır. Son illərdə başlanmış məhkəmə-hüquq islahatlarının yeni mərhələsi ədalət mühakiməsinin səmərəli təşkilinə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına yönəlmişdir. Həyata keçirilən bu islahatlar respublikamızda qanunçuluğun, hüquq qaydalarının daha da möhkəmlənməsinə, konstitusion normaların tam bərqərar olmasına xidmət edir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Dünya Bankının reytinqində ÜDM-ə görə Ermənistan 195 dövlət arasında 130-cu yerdədir. Ötən ildə Ermənistanın ÜDM-i 10 milyard 547 milyon dollar olub. Ermənistan Dövlət Statistika Xidmətinin mlumatına görə 2017-ci ilin may ayına görə dövlət borcu 6 milyard 95 milyon dollardır. Bu rəqəmin 4 milyard 373.3 milyonu xarici borcun, 1 milyard 170.6 milyonu daxili borcun payına düşür. "Transparency International''ın korrupsiya reytinqinə görə 2016-cı ildə Ermənistan 33 balla 113-cü yerdədir. [i]***



# Hər üç vətəndaşından biri yoxsul olan Ermənistan

Ermənistan Dövlət Statistika Xidmətinin Sədrinin məsləhətçisi Diana Martirosyan 5 dekabr 2017-ci ildə mətbuata verdiyi açıqlamada qeyd edir ki, ölkə vətəndaşlarının hər üç nəfərdən biri yoxsuldur. Buna görə kasıblar ölkə əhalisinin 29.4 faizini təşkil edir ki, onlardan 1.8 faizi çox yoxul, 8 faizi olduqca olduqca yoxsuldur. Ölkə üzrə yoxulların sayı isə təxminən 800 min nəfərdir. Yoxsullar nəzərdə tutulan 40.867 dramdan (99.7 dollar) az pul xərcləyirlər.

Yoxsulluq əmaslı ayda 40 867 dramdan (85 dollar) az xərcləyən vətəndaşlara aiddir. Ayda 33 418 dramdan (69 dollar) az gəliri olanlar çox yoxsul, 23 313 dramdan (48 dollar) az gəliri olanlar səfalət içində yaşayanlar hesab edilir. Maraqlıdır ki, Ermənistan hələ də 2009-cu ilə - iqtisadi böhranından əvvəlki yoxulluq həddinə enməyib. Belə ki, 2008-ci ildə yoxsullar əhalinin 27.6 faiz təşkil edirdi. Bir başqa əhəmiyyətli göstərici də bölgələr arasında yoxsulluq həddinin qeyri-bərabər paylaşımıdır. İrəvanda yoxsulluq həddi 24.9 faizdirsə, digər bölgələrdə bu fərq 33.2 faizə qədər yüksəlir.

Yoxsulluğun qarşısının alınması üçün 63.2 milyard dram (130.3 milyon dollar) lazımdır ki, bu da ÜDM-in 1.2 faizini təşkil edir və Ermənistan kimi bir dövlət üçün olduqca böyük rəqəmdir. Çox yoxsul olanların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün 1.4 milyard dram-ÜDM-in 0.03 faizi lazımdır. [ii]

Ermənistanın 2014-2025-ci illər üçün Strateji inkişaf perspektivi proqramında hökumət yoxsulluq həddini 24 faizə endirməyi planlaşdırsa da, mövcud iqtisadi göstəricilər bunun mümkün olmayacağını deyir.

Dünya Bankının iqtisadçısı Morits Meyer Ermənistanda yoxsulluq həddinin azaldılması üçün iqtisadi inkişafın təmin edilməsini, xaricdə, xüsusilə Rusiyadakı erməni qastrbayterlərin ölkələrinə pul tarnsferinin artmasını şərt olaraq görür.

2018-ci ilin dövlət büdcəsini dəyərləndirən "ELK-Çıxış" müxalifət fraksiyasının nümayəndəsi Nikol Paşinyan isə son üç ildə pensiya və sosial təminat xərclərinin artırılmadığını, 2017-ci ildə infilyasiyanın 2.7 faiz olduğunu, 2018-ci ildə isə 4 faizə yüksələcəyini bildirib.

Doing Business məlumatlarına görə sərmayə mühitinə görə Ermənistan 9 pillə geriləyərək 47-ci yerdə qərar tutub. [iii]

Cari ilin əvvəllərində Baş nazir Karen Karapetyan və Prezident Serj Sərkisyan "Ermənistana sərmayə yatıranlar Klubu''nun ölkəyə 1 milyard dollar sərmayə qoyacağını bildirsələr də, 2017-ci il bitmək üzrəykən bu proqram daxilində hələ 1 dollar da sərmayə gəlməyib. Maraqlıdır ki, buna baxmayaraq hər ikisi mütəmadi olaraq bu informasiyanı yüksək tribunalardan təkrarlayaraq özlərinə siyasi divident qazanır, xalqı isə aldadırlar. [iv] Bir digər maraqlı məqam isə bu fikrin Baş nazir Karapetyan tərəfindən ortaya atılmasına baxmayaraq, Prezident Sərkisyanın buna sahib çıxması və öz təşəbbüsü kimi qeyd etməsidir.

Ukraynanın TEXTY Analitika Mərkəzinin hesablamalarına görə, Ermənistan dünyanın ən kasıb ölkələri siyahısında yer alır. [v]

Ermənistan Mərkəzi Bankının statistik göstəricilərinə görə, 2017-ci ilin oktyabr ayında ölkədən sərmayə çıxışı 115 milyon dollar olub. Sərmayənin ölkədən "qaçma'' sürəti hər ay artır. Belə ki, avqust ayında 76.9 milyon, sentyabr ayında 94 milyon dollar sərmayə ölkədən çıxarılıbsa, oktyabr ayında bu rəqəm yuxarıda qeyd edildiyi kimi 115 milyon dollardır. 2016-cı ilin oktyabr ayında isə 76 milyon dollar ölkədən "qaçmışdı." Bu məbləğin 43.6 milyon dolları Rusiyaya, 23 milyon dolları ABŞ-a, geri qalanı isə digər ölkələrə sərmayə qoyulub. [vi]

Ermənistan Prezidenti Serj Sərkisyan 12 dekabrda etdiyi çıxışında 2024-cü ilə qədər ölkədə adambaşına düşən ÜDM-in 10 min dollar olacağını qeyd etsə də, [vii] bir çox iqtisadçı bunun heç 2040-cı ilə qədər də fiziki olaraq mümkün olmayacağını bildirir. [viii]

2018-ci ilin sonlarına qədər Ermənistanın dövlət boscunun ÜDM-in 60 faizi olacağı təxmin edilir. Keçdiyimiz günlərdə Ermənistan parlamenti dövlət borcunun ÜDM-nin 60 faizindən yuxarı həddə borc almasını hökumətə qadağan edən qanun qəbul etdi. [ix] Parlamentin bu qərarı ÜDM ilə dövlətin xarici borcu arasında tarazlığı təmin etməyə çalışsa da, önümüzdəki illərdə bir çox böyük layihələrin həyata keçməsinə mane olacaqdır.

Ümumiyyətlə, Ermənistan iqtisadiyyatı 2009-cu ildə yaşanan dünya iqtisadi böhranının nəticələrini hələ də üzərində hiss edir. İqtisadi göstəricilərinin bir çoxu hələ də 2009-cu il göstəricilərinin altındadır. Ölkədə korrupsiyanın qarşısının almaq mümkün deyil, sərmayə yüksələn qrafik üzrə xaricə "qaçır.'' Hökumət bu problemlərin qarşısını almada acizdir və yeni problemlərlə qarşı-qarşıya qalma ehtimalı olduqca yüksəkdir.

***Hatəm Cabbarlı,***
***siyasi elmlər doktoru***
***Newtimes.az***

# Daşaltı əməliyyatından 26 il ötdü

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ərzində ən mühüm döyüş əməliyyatlarından hesab edilən, Daşaltı kəndinin erməni silahlı birləşmələrindən təmizlənməsi məqsədilə keçirilən əməliyyatdan 26 il ötdü. Şuşa yaxınlığında yerləşən, Əsgəran rayonunun Daşaltı kəndində 1992-ci il, yanvarın 25-də saat 20:00-da başlanılan əməliyyat yanvarın 26-da gecə uğursuzluqla başa çatıb. Daşaltı kəndinin erməni yaraqlılarından azad edilməsi məqsədilə keçirilən əməliyyata sabiq müdafiə naziri, general-mayor Tacəddin Mehdiyev birbaşa rəhbərlik edib.***

Əməliyyatda yeni yaranmış Azərbaycan Ordusunun könüllülərdən ibarət 3 bölüyü və Şuşa şəhərinin müdafiə taborunun döyüşçüləri iştirak ediblər. Taktiki səhvlər, qruplar arasında rabitə əlaqəsinin olmaması, əməliyyat sirrinin yayılması və bələdçilərin xəyanəti nəticəsində, Nəbilər kəndi istiqamətindən Daşaltıya daxil olan Azərbaycan əsgərləri düşmənin pusqusuna düşərək, tamamilə məhv edilib.

Tacəddin Mehdiyev güclü dumanın çökməsindən istifadə edərək, Şuşaya doğru geri çəkilmək əmri verib. 1992-ci il 26 yanvarda Milli Ordunun sağ qalmış döyüşçüləri Daşaltıdan Şuşaya doğru geri çəkilə bilib. Rəsmi məlumatlara



görə, Daşaltı əməliyyatında Azərbaycan Ordusu 90 nəfərdən artıq itki verib, bundan başqa, onlarla əsgər hələ də itkin düşmüş sayılır. Döyüşdə ermənilər bir neçə texnika və 80-ə yaxın canlı qüvvə itiriblər.

Qeyd edək ki, Daşaltı əməliyyatının gedişatında qələbə müharibənin gedişatını dəyişdirə bilərdi. Amma əməliyyatın uğursuzluğundan sonra, Azərbaycan qoşunları uzun müddət, faktiki olaraq, hücum əməliyyatlarını həyata keçirmədilər. Çünki 1992-ci ildə Azərbaycanda birlik yox idi, iqtidarla müxalifət arasında hakimiyyət uğrunda ölüm-dirim mübarizəsi gedirdi. Düşmən bundan məharətlə istifadə edərək, bir-birinin ardınca torpaqlarımızı işğal edir, rayonlarımızı, kəndlərimizi, qəsəbələrimizi viranəyə çevirir, dinc əhalini qırıb-çatır və öz doğma yurdlarından qovurdular. Məhz uğursuz keçən Daşaltı əməliyyatından sonra Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və ətraf rayonlarda erməni quldurları tərəfindən azərbaycanlıların etnik təmizlənməsi prosesi daha da sürətləndi.

Daşaltıda məğlubiyyət Azərbaycan qoşunlarının və əhalinin döyüş ruhuna ciddi təsir etməsinə baxmayaraq, bu döyüş hərbçilərimizin qəhrəmanlıq və cəsarət nümunəsi kimi də xatırlanır.

***ZÜMRÜD***

# Azərbaycan Respublikasının vətəndaşlıq hüququ

***Vətəndaşlıq dedikdə, şəxsin dövlətə mənsubiyyəti, şəxslə dövlət arasında onların qarşılıqlı hüquq və vəzifələrində ifadə olunan daimi siyasi-hüquqi əlaqə başa düşülür.***

Azərbaycan Respublikasının Konstitusiyasının 52-ci maddəsində və "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" 1998-ci il 30 sentyabr Qanununun 1-ci maddəsində göstərilir: "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə, qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır". Qarşılıqlı hüquq və vəzifələr şəxs və dövlət arasındakı daimi siyasi və hüquqi əlaqədən irəli gəlir. Prezident İlham Əliyev "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2014-cü il 30 may tarixli qanunun tətbiqi haqqında Fərmanı imzalayıb. Dəyişikliklərə əsasən, 5-ci maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilir: "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir". 10-cu maddə aşağıdakı redaksiyada verilir:

"Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyətinin tanınmaması Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda (Azərbaycan Respublikası vətəndaşlığı ilə yanaşı, digər dövlətin (dövlətlərin) vətəndaşı olduqda), həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə, həll edilmiş hallar istisna olmaqla tanınmır. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir. Belə məlumatı verməyən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar". 12-ci maddə aşağıdakı redaksiyada verilir:

"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində doğulmuş uşaqlarının vətəndaşlığı Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni əcnəbi olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir. Azərbaycan Respublikasının ərazisində doğulmuş və valideynlərindən biri əcnəbi, digəri isə vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir. Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşıdır".

18-ci maddə aşağıdakı redaksiyada verilir: "Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi "Vətəndaşsızlığın ixtisar edilməsi haqqında" 1961-ci il 30 avqust tarixli Konvensiyanın müddəaları nəzərə alınmaqla, aşağıdakılar Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi üçün əsas hesab edilir:

1) Azərbaycan Respublikası vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi; 2) Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi; 3) Azərbaycan Respublikası vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı; 4) Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsin vətəndaşlığa qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim etməsi.

Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi məsələsi bu Qanunun 17-ci maddəsinin ikinci və üçüncü hissələrində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla həll edilir".

Azərbaycan Respublikası vətəndaşlığının prinsiplərinə aşağıdakılar daxildir:

I. Vətəndaşlığın müstəqil müəyyən olunması.

"Azərbaycan Respublikası vətəndaşlığı haqqında qanun"un V maddəsinə görə aşağıdakı şəxslər Azərbaycan Respublikası vətəndaşlarıdır:

**1)** qanunun qüvvəyə mindiyi vaxtadək Azərbaycan Respublikasının qeydiyyatında olan vətəndaşlar;

**2)** 1992-ci il yanvarın 1-dək vətəndaşlığı olmayan, lakin qeydiyyatda olan şəxslər. 3) 1988-ci ildən 1992-ci ilədək Azərbaycan ərazisində məskunlaşmış qaçqınlar;

**4)** Bu qanuna əsasən vətəndaşlıq əldə etmiş şəxslər;

II. Vahid vətəndaşlıq prinsipi;

III. Bərabər vətəndaşlıq prinsipi;

IV.Vətəndaşlıqdan məhrumetmənin yolverilməzliyi prinsipi. Vətəndaşlıqdan məhrumetmə, əslində, insan və vətəndaş hüquqlarının məhdudlaşdırılması deməkdir.

V.Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası ərazisindən qovulmasının və ya xarici dövlətə verilməsinin yolverilməzliyi. Bu prinsip vətəndaşın dövlət hakimiyyətinin təzyiqindən qorunmasını ifadə edir. Heç kəs Azərbaycan Respublikası vətəndaşını dövlət ərazisindən qova bilməz.

VI.Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarına Azərbaycan Respublikasının himayəçilik prinsipi. Yalnız böyük dövlətlər bu imkana malikdirlər. Faktiki olaraq, xırda dövlətlər böyük dövlətlər ərazisində yaşayan vətəndaşlarına himayəçilik edə bilmir.

VII. Vətəndaşlığın saxlanması.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında qanun"a görə, Azərbaycan Respublikası vətəndaşlığı aşağıdakı qaydalarla yaranır:

- doğulduqda;
- vətəndaşlığa qəbul edildikdə;
- beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar olduqda.

Vətəndaşlığın əldə edilməsi yollarına aşağıdakılar daxildir: 1) vətəndaşlığın anadangəlmə əldə edilməsi. Burada iki prinsip var:

**1)** - qan hüququ;

**2)** - torpaq hüququ.

Vətəndaşlığın şəxsi vəsatətlə əldə edilməsi. Bu bir qədər mürəkkəb qaydadır. Burada müxtəlif şərtlər var ki, onlara əsasən, şəxs dövlətin vətəndaşlığını əldə edir. Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmək üçün şəxs:

- ən azı 5 il Azərbaycanda daimi yaşamalı;
- Azərbaycan dilini bilməsi haqqında sənəd təqdim etməli;
- Azərbaycan dövlətinin mənafelərinə uyğun gəlməlidir.

**3)** yaranmış ikili vətəndaşlıqdan birinin seçilməsi.

**4)** ərazilər dəyişərkən, yəni bir dövlətdən digərinə keçərkən, həmin ərazidə yaşayan əhalinin vətəndaşlığının müəyyən olunması.

Vətəndaşlığın bərpası - reinteqrasiya. Yəni şəxs müəyyən səbəbdən öz vətəndaşlığını itirib, sonra bərpa etmək istəyirsə, vətəndaşlıq bərpa olunur. Reinteqrasiya daha tez baş verir, şəxsin vəsatət qaldırması əsas götürülür. Vətəndaşlıq aşağıdakı üsullarla xitam oluna bilər:

**1)** vətəndaşlıqdan çıxma;

**2)** vətəndaşlığı itirmə və s.

Vətəndaşlıqdan çıxmaya denaturalizasiya da deyirlər. Bu zaman şəxs vətəndaşlıqdan çıxmaq barədə vəsatət qaldırır və prezidentin Sərəncamı ilə vətəndaşlıqdan çıxır. Bununla vətəndaşlıq xitam olunur. Şəxs bu hərəkətinin səbəblərini göstərməlidir. Əgər şəxsin dövlət və ya hərbi xidmətlə bağlı öhdəlikləri varsa, cinayət məsuliyyətinə cəlb olunaraq, məhkum olunubsa, mülki hüquqi şəxslər və dövlət qarşısında öhdəlikləri varsa, onun vəsatəti qəbul olunmur. Bütün bunlar aradan qaldırılsa, şəxsin vəsatətinə baxılır.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə bağlı üç rejim mövcuddur:

**1)** milli rejim;

**2)** daha əlverişli rejim;

**3)** xüsusi rejim.

Hazırda əcnəbi hər hansı bir dövlətin vətəndaşı olub, başqa dövlətin ərazisində yaşayan şəxslərə deyilir. Vətəndaşlığı olmayan şəxs isə vətəndaşlığını təsdiq edən sənədi olmayanlardır. Əcnəbi və vətəndaşlığı olmayanların hüquqi statusu təqribən üst-üstə düşür. Yalnız bir fərq var: əcnəbini yarana biləcək mübahisədə himayə edəcək dövlət var və vətəndaşlığı olmayan şəxsi isə yoxdur.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Azərbaycan ərazisində 10 gündən çox müvəqqəti qalmaq istəyən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün qeydiyyat prosesini sadələşdirib. Xidmətin təqdim etdiyi olduğu yer üzrə qeydiyyata alınması üçün müraciətin və sənədin qəbulu adlı xidmət elektron hökumət portalına inteqrasiya edilib. Xidmət qeydiyyatsızdır, yəni xidmətdən istifadə etmək üçün portaldan qeydiyyatdan keçmək tələb olunmur. Sadəcə, e-gov. az elektron ünvanına daxil olub, elektron xidmətlər içərisindən Dövlət Miqrasiya Xidmətinin təqdim etdiyi elektron xidmətlər siyahısından olduğu yer üzrə qeydiyyata alınması üçün müraciətin və sənədin qəbulu xidmətini seçmək lazımdır. Xatırladaq ki, xidmət Azərbaycan, ingilis və rus dilində təqdim edilir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə hüquqi şəxslər tərəfindən qeydiyyatı isə fiziki şəxslərin həyata keçirdiyi qaydada aparılır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti 18 mart 2015-ci il tarixli 84 saylı qərarı ilə "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilmişdir. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilir. Həmin qaydalara görə, şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə əlaqədar icraat onun Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlərə malik olmadığı və ya belə sənədləri qanunsuz əldə etmələrinə əsaslı şübhələr olduğu təqdirdə aparılır.

Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi üçün əsaslar aşağıdakılardır:

- "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə mindiyi günədək (1998-ci il oktyabrın 7-dək) Azərbaycan Respublikasının vətəndaşlığında olması vətəndaşlıq mənsubiyyətinin araşdırılmasına əsasdır. Şəxs həmin tarixdə Azərbaycanda qeydiyyatda olmasını sübut edən sənədə malikdirsə, həmin sənədi "ASAN Xidmət"ə və ya polis orqanlarına təqdim etməklə, şəxsiyyət vəsiqəsi ilə təmin olunmalıdır. Bu cür şəxslərdən qanunda nəzərdə tutulmayan sənədin, yəni Miqrasiya Xidmətindən arayışın tələb olunması yolverilməzdir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 27 yanvar

## Xərçəngin dərmanı - qara şokolad və qırmızı çaxır!



Amerikalı alimlərin apardığı araşdırmalar nəticəsində insanların xərçəng xəstəliyinə qarşı dayanmaq gücünün artırılmasına yardım edən daha bir vasitə aşkarlanıb. Belə ki, qara şokolad və qırmızı çaxır xərçəng xəstəliyi ilə mübarizə aparmağa yardım edən qidaların siyahısına daxil edilib. Qeyd edək ki, əvvəllər bu siyahıda yaşıl çay və soya var idi. Həkimlər bildirirlər ki, bu qidalar xəstəliyin ən ağır mərhələsində onun aradan qaldırılmasında preparatları əvəz edə bilməsələr də, ilkin mərhələ üçün çox faydalıdırlar. Qara şokolad və qırmızı çaxır qanın xərçəng hüceyrələrinə daxil olmasının qarşısını alır. Bunun nəticəsində isə həmin hüceyrələr ölür.

## Smartfonlar yeniyetmələri "bədbəxt" edir

San-Dieqo və Corciya Universitetlərinin alimləri yaşı 13-18 arası təxminən milyona yaxın məktəblinin iştirak etdiyi tədqiqatın nəticələrini araşdırıblar. Tədqiqatçıların fikrincə telefon və kompüter oyunlarına çox zaman ayıran yeniyetmələr digərlərinə nisbətən özlərini daha az xoşbəxt hiss edirlər. AZƏRTAC MedDaily saytına istinadla xəbər verir ki, araşdırmaların nəticəsində iştirakçılar arasında ən xoşbəxt yeniyetmələrin gün ərzində smartfonlara bir saatdan daha az zaman ayıranların olduğu aşkarlanıb. Tədqiqatlar onu da göstərib ki, bu növ elektron cihazlardan ən çox istifadə edənlər ABŞ yeniyetmələridir. Araşdırmalarda iştirak edən, 2000-ci ildən sonra doğulanların uşaqlığı 1990-cı illərə təsadüf edənlərə nisbətən həyatdan daha az həzz aldıqları məlum olub.



Alimlər onu da bildiriblər ki, bu hal 2012-ci ildən sonra dünyaya gələnlər arasında da çox yayğındır. Alimlərin fikrincə yeniyetmələrin ekran qarşısında iki saatdan daha az zaman keçirmələri onlarda xoşbəxtlik hissinin artaraq normallaşmasına kömək ola bilər.

## Dubayda dünyada ən böyük fincan təqdim edilib




Dubayda yeni dünya rekordu müəyyən olunub. Yerli KİV-lərin yaydığı məlumata görə, bu rekord içərisində 5 min litr həcmində isti "Karak" çayı olan ən böyük fincan şəklində "Ginnesin Rekordlar Kitabı"na daxil olacaq. AZƏRTAC xəbər verir ki, fincanın hündürlüyü 3,66 metr, daxili diametri 1,42 metrdir. Bu qədər çay 55 min standart fincanı doldurmaq üçün kifayətdir. Rekord "GlobalVillage" yarmarkasında müəyyən olunub. Dünyada ən böyük fincan yarmarkada fevralın 1-dək nümayiş etdiriləcək və yarmarkaya gələnlərin hamısı onun fonunda şəkil çəkdirə biləcəklər. Bildirilir ki, çayı bir neçə saat ərzində 120 aşpaz dəmləyib. Onu hazırlamaq üçün su ilə yanaşı, 155 kiloqram çay pudrası, 270 kiloqram quru süd, 360 kiloqram şəkər, 135 kiloqram zəncəfil, 4,5 kiloqram mixək, 27 kiloqram darçın və 27 kiloqram hil lazım gəlib.

## DÇ-2018 üçün artıq 4 milyondan çox bilet sifariş olunub




Azarkeşlər 2018-ci ildə keçiriləcək futbol üzrə dünya çempionatının oyunlarına bilet almaq üçün satışların ikinci mərhələsinin gedişində 4 milyondan çox sifariş veriblər. Bu barədə Beynəlxalq Futbol Federasiyasının (FIFA) mətbuat xidməti məlumat yayıb. SİA TASS informasiya agentliyinə istinadla xəbər verir ki, yanvarın 26-dək sifariş edilən biletlərin sayı 4 milyon 21 min 211 ədəd olub. Sifarişlərin əksəriyyəti Rusiya azarkeşləri tərəfindən edilib. Müraciətlərin sayına görə növbəti yerlərdə Almaniya, Argentina və Meksika qərarlaşıb. Hazırkı mərhələdə dünya çempionatının oyunlarını stadionlarda izləmək istəyən xarici ölkə vətəndaşlarının payı 45 faizdir. Bilet satışlarının ikinci mərhələsi dekabrın 5-də start götürüb və aprelin 3-nə qədər davam edəcək. Əgər sifarişlərin miqdarı stadionlarda ayrılan yerlərdən çox olarsa, biletlər püşkatma yolu ilə satılacaq. Bu mərhələdə çempionatın açılış və final oyunları istisna olmaqla, bütün oyunları biletlər sifariş etmək mümkündür. Bundan sonra aprelin 18-dən başlayaraq biletlərin canlı növbə ilə satılacağı "son an" mərhələsi iyulun 15-də - dünya çempionatının final oyunu günündə başa çatacaq.

## "Neftçi"nin 6 futbolçusu millidə

"Neftçi" PFK-nın 6 futbolçusu Azərbaycan milli komandasına dəvət olunub. SİA-nın məlumatına görə, Ruslan Abışov, Rəhman Hacıyev, Emin Mahmudov, Rəşad Əzizli, Məhəmməd Mirzəbəyov və Anton Krivotsyuk yanvarın 30-da Moldova yığması ilə Türkiyənin Antalya şəhərində keçiriləcək yoldaşlıq oyununa çağırılıblar. Xatırladaq ki, "Neftçi"nin daha 4 üzvü - Elnur Cəfərov, Ömər Buludov, Elvin Sərkərov və Kamran İbrahimov U-21 milli komandasının düşərgəsindədir.

## Mourinyo "Mançester Yunayted"lə yeni müqavilə imzalayıb!



İngiltərənin "Mançester Yunayted" futbol klubu, baş məşqçi Joze Mourinyo ilə müqavilə müddətini 2020-ci ilədək uzadıb. Bu barədə "qırmızı şeytanlar"ın rəsmi saytı məlumat yayıb. İmzalama mərasimində danışan portuqaliyalı mütəxəssis, "Mançester Yunayted"in sükanı arxasında olmaqdan şərəf duyduğunu deyərək, ona güvəndikləri üçün klub rəhbərliyinə minnətdarlıq edib. O bildirib ki, yeni ildə komandası ilə yeni uğurlara imza atacağına inanır.



## Koutinyo "Barselona"da debüt edib

"Barselona"nın yeni transferi Filippe Koutinyo Kataloniya klubunda debüt edib. SİA-nın məlumatına görə, braziliyalı yarımmüdafiəçi İspaniya kubokunun 1/4 finalının "Espanyol"la cavab matçında meyda çıxıb. O, görüşün 68-ci dəqiqəsində Andres İnyestanı əvəzləyib. Qeyd edək ki, "Liverpul"dan transfer olunan Koutinyo bud nahiyyəsindəki zədə səbəbindən 2 həftə yaşıl meydanlardan kənarda qalmışdı.

## "Beşiktaş" Vaqner Lavı transfer edib



"Beşiktaş" "Alanyaspor"un formasını geyinən Vaqner Lavı transfer edib. SİA-nın məlumatına görə, bu barədə Türkiyə mediası məlumat yayıb. Bildirilir ki, İstanbul təmsilçisi 34 yaşlı forvard üçün əvvəlki klubuna 3,2 milyon avro ödəyəcək. Braziliyalı hücumçu ilə 1,5 + 1 illik müqavilə bağlanılacaq. Onun illik maaşı isə 1 milyon 850 min avro təşkil edəcək. Qeyd edək ki, "Beşiktaş" əsas hücumçusu Cenk Tosunu İngiltərənin "Everton" klubuna satdığı üçün Vaqner Lavı transfer edib. Braziliyalı hücumçu ötən mövsüm vurduğu 23 qolla Türkiyə Super Liqasının bombardiri olub. Cari çempionatda 10 dəfə fərqlənən forvard karyerası ərzində Braziliyanın "Palmeyras", "Flamenqo", "Korintians", Rusiyanın MOİK, Fransanın "Monako" və Çinin "Şandun Lunen" klublarında çıxış edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**